# Eşqin təcəllası

## Şəhid Əli Təcəllayinin xatirə və əlyazmaları

**Tərtib edən: Nəsibə Əbdüləlizadə**

بسم الله الرحمن الرحيم

**Kitabın adı:......................................Eşqin təcəllası**
**Tərtib edən:..........................Nəsibə Əbdüləlizadə**
**Tərcümə edən:.................................Fatimə Salahlı**
**Çap tarixi:..........................................................2022**
**Çap növbəsi:.................................................Birinci**
**Tiraj:..................................................................1000**

«Издательство Полипресс»
Тверь, Комсомольский проспект, дом 19.
Тел.: (4822) 58-19-78, 500-250,

ISBN 37-33-024519-36

Mündəricat

Ön söz ....................................................................6
Şəhid Əli Təcəllayinin həyatının xronologiyası.......10
Kaş SAVAK-da işləyəydim.........................................13
Ağır şərait...................................................................20
Əfqanıstan ezamiyyəti................................................22
Süsəngird Təcəllayinin sözlərində.............................26
Özümlə fəxr edirdim ..................................................39
Avtomat Əli ................................................................52
Ezamiyyət əmri ..........................................................58
Gözəl bir məktub.........................................................68
Komandirlik kursu......................................................73
Şəhid Təcəllayi Xeybər əməliyyatı barədə ...............75
Əməliyyatın ləğvi........................................................90
Snayper........................................................................97
Rəqs edə-edə gedəcəyəm ...........................................99
Əlhəmdülillah............................................................110
Qıza məktub...............................................................114
Şəhid Əli Təcəllayinin birinci vəsiyyətnaməsi.......118
Əziz atam və anam! ..................................................120
Həyat yoldaşım N. S.!...............................................122
Şərafətli İran xalqı! ...................................................124
Şəhid Əli Təcəllayinin ikinci vəsiyyətnaməsi............130

Bu gözəl və ibrətli əlyazmaları oxudum. Bunların hamısı Şəhid Təcəllayinin dərin mənəvi təcəllasıdır. Güclü dindarlıq, şəhadətə səbirsizlik, əməldə cəsarət, tədbirdə dərrakə, idarədə zəka, dünyaya etinasızlıq, bütün diqqəti Allaha və qiyamətə yönəltmək – biz bunların hamısını və daxilindəki günəşin möhtəşəm təcəllasını özü həyatda ikən əyani şəkildə görmüşdük.

Bu əlyazmalar, şərhə ehtiyac olmadan, Allaha doğru yol axtaran hər kəsə dəyərli mesajlardır. Kimsə onun böyük qəhrəmanlıq dolu Süsəngird mövzusundakı bir neçə səhifəlik qısa yazısını sənət əsərinə çevirə bilsə, bir insanın ən gözəl bəşəri cilvəsini, iradə və qeyrətini nümayiş etdirmiş olar.

Şəhadətə qovuşmuş əziz aşiq Əliyə Böyük Allahın salamı və rəhməti olsun! O mənim təlimdə yox, hər

bir şeydə müəllimim idi, gözəl Əli adına layiq oldu və bu məşhur adın təcəllasına çevrildi.

Qasim Süleymani
08.08.18

# Ön söz

Qarşınızdakı əsər misilsiz şəxsiyyəti hələ də tanınmaz qalmış sərhədsiz və məzarsız mücahidə öz həddimizdə təşəkkürnamədir. O, torpaqlarımızın bir qarışı da yad əllərdə qalmasın deyə canını qurban vermiş insandır. O, nişan mərasimində nişanlısına bu sözləri söyləmiş şəxsdir: "Eşitmişəm ki, gəlin nikah əqdi oxunan zaman hansı duanı etsə, Allah qəbul edər. Əgər məni sevirsənsə, xoşbəxtliyimi istəyirsənsə, dua et ki, şəhid olum". Bu düşüncənin qiymətini Əli Təcəllayidən başqa kim bilərdi ki?! Onun kimi aşiq olmaqdan ötrü imanın hansı dərəcəsinə nail olmaq lazımdır görəsən?! Döyüşə getməməkdən ötrü min cür səbəbi vardı, amma heç biri onu qorxu və təhlükə dolu səhnələrdən saxlaya bilmədi. Digər Allah adamları kimi yarın gözəlliyindən başqa bir şey görmədi, Xatəmül-

ənbiya qərargahındakı kabinetini tərk edib Süsəngirdin azadlığının yadigarı olan, hər yerində güllə və qəlpə izi görünən döyüş paltarını geyindi, dünyəvi bağlardan uzaq, tanınmaz halda Bədr əməliyyatına, özünün son döyüşünə yollandı.

Yüksək rütbəli müharibə komandirlərinin çoxu düşünür ki, Əli Təcəllayi sağ qalsaydı, Bakirilərə yaxşı əvəzedici ola bilərdi. Lakin o, zəncirlərdən azad olmuşdu və şəhadətdən başqa bir şeylə sakitləşə bilmirdi.

Şəhid Həsən Baqirinin bu sözü bizim fəaliyyətlərimizin sərlövhəsidir: "Biz bu inqilaba və şəhidlərə borcluyuq; anaların göz yaşlarına, uşaqların atasızlığına və xanımların gözlərinin yolda qalmasına borcluyuq”. Biz şəhidlərə, müharibə əlillərinə, əsirlikdə olanlara və onların ailələrinə borcluyuq. Bakirilərə, Şəfizadələrə, Yağçianlara və digərlərinə borcluyuq. Biz Süsəngirdin fatehi olan Əli Təcəllayiyə borcluyuq; hansı ki, son məktubunda yazmışdı: "Əminəm ki, daha qayıtmayacam. Allah eləsin, cəsədim də qayıtmasın!"

Qeyd etmək lazımdır ki, cənab Cəlal Məhəmmədinin 1995-ci ildə çap olunmuş "Bədr ulduzu" kitabını saymasaq, Şəhid Əli Təcəllayi barədə diqqətəlayiq bir əsər nəşr edilməyib. Halbuki bu əziz şəhiddən qalmış əsərlərin – məktubların, çıxışların, əməliyyat şərhlərinin, xatirə və əlyazmaların özü yetərincədir və indiyədək onların

çapı üçün ciddi bir iş görülməmişdir. Biz bu işdən ötrü ilk addımda onun dözümlü həyat yoldaşı xanım Əbdüləlizadə ilə görüşdük. Bu inqilabçı xanım qırx il boyunca qiymətli xəzinə kimi qoruduğu əlyazmaları çox alicənablıqla bizim ixtiyarımıza verdi və onların nəşrinə şərait yaratdı. Əli Təcəllayiyə eşqlə həyat problemlərini təkbaşına həll etmiş, bu məşhur komandirin həyatını və şəhadətini çatdırmaqda əlindən gələni əsirgəməmiş bu xanım, nəhayət, bir hadisə nəticəsində təcəllayisevərləri matəmə qərq edib dünyasını dəyişdi. Xatirəsini uca tuturuq!

Sonda bu kitabın ərsəyə gəlməsində əməkdaşlıq etmiş, ixlasla zəhmət çəkmiş bəsici sənət adamı Hacı Behzad Pərvinqüdsə, Hacı Məhəmməd Həbibullahiyə, Əlirza Xosroviyə, Rza Quluzadəyə və Nasir Qarirasiyə təşəkkürümüzü bildiririk. Həmçinin köməklərinə görə Keşikçilər korpusunun Quru Qoşunlarının möhtərəm əlaqələndiricisinin müavini sərdar Ələkbər Purcəmşidiana və Aşura korpusunun hörmətli komandiri general Abidin Xürrəmə təşəkkür edirik. Ümidvarıq ki, bu əsərin nəşri ilə Şəhid Əli Təcəllayini tanıtdırmaqda əhəmiyyətli addım atmış olaq.

Bu əsəri rəşadətli İslam komandiri Şəhid Əli Təcəllayinin və fədakar həyat yoldaşı xanım Əbdüləlizadənin pak ruhlarına təqdim edir və şəhidlərin şəfaətindən bəhrələnməyə ümid bəsləyirik.

Təbriz, Şəhid Təcəllayi adına mədəniyyət mərkəzi
İyun 2021

# Şəhid Əli Təcəllayinin həyatının xronologiyası

28.07.59 - Təbrizin Maralan məhəlləsində, Şəhid Müntəziri xiyabanında dünyaya gəlməsi

1965 - Orta məktəbə daxil olması

1977– İranda şah rejimi əleyhinə bəyanatların çap və nəşri, mitinq və yürüşlərdə iştirak

1979 - İslam İnqilabının Keşikçiləri Korpusuna daxil olması, Tehranın Sədabad sarayında Şəhid Səid Gülabbəxşin nəzarəti altında keçirilən hərbi təlimləri bitirməsi

1980 - Təbrizin Xasiban bölgəsindəki Seyyidüş-şühəda hərbi mərkəzində təlimçi pasdar kimi fəaliyyəti, sonra isə əks-inqilabçı hərbi qüvvələrə qarşı vuruşmaq üçün Kürdüstana getməsi

1980 - Əfqanıstana mühacirəti, işğalçı Sovet qoşunlarına qarşı vuruşan məzlum Əfqanıstan xalqına yardım etməsi, mücahidlərə ilk komandirlik təlimi mərkəzini yaratması

1980 - İraqın İrana hücumundan sonra Əfqanıstandan qayıdıb ölkənin cənub cəbhələrinə yollanması, Dehlaviyyə döyüşlərində və Süsəngird qəhrəmanlığında iştirak etməsi, Dehlaviyyə istiqamətinin əməliyyat komandiri və Süsəngird korpusunun əməliyyat komandirinin müavini vəzifələrində çalışması, Süsəngird döyüşündə aldığı yaraların müalicəsi üçün Tehrana göndərilməsi

1981 - Xanım Nəsibə Əbdüləlizadə ilə ailə qurması

1981 - Piranşəhr korpusunun Əməliyyat rəisi kimi fəaliyyətə başlaması

1982 - Fəthülmübin əməliyyatında Şərqi Azərbaycan vilayətindən ezam olunmuş Şəhid Mədəni və Şəhid Qazi batalyonlarının komandiri vəzifələrində xidmət etməsi

1982 - Aşura briqadası komandirinin birinci müavini kimi Beytülmüqəddəs əməliyyatında iştirakı

1982 - Aşura briqadası komandirinin Əməliyyat planı xidmətinin rəisi kimi Ramazan əməliyyatında iştirakı

1983 - Vəlfəcr-hazırlıq əməliyyatında iştirakı

1983 - Qardaşı Mehdi Təcəllayinin şəhadəti

1983 - Ordunun komandirlik təlimində iştirak etməsi üçün Tehrana ezam olunması

1983 - Korpus komandirinin peşəkar təlimlər üzrə müavini vəzifəsinə təyin olunması

1983 - Xatəmül-ənbiya qərargahının Əməliyyat planı xidmətinin rəisi kimi Vəlfəcr-2 və Vəlfəcr-4 əməliyyatlarında iştirakı

1984 - Xeybər əməliyyatında iştirakı

1984 - Zəfər qərargahı komandirinin birinci müavini təyin olunması

08.02.85 - Bədr əməliyyatında snayper və Aşura diviziyasının İmam Hüseyn (ə) batalyonunun idarəçisi kimi iştirakı

16.03.85 - Dəclənin şərqində şəhid olması və pak cəsədinin itkin düşməsi.

# Kaş SAVAK[1]-da işləyəydim

**Məhəmməd Təcəllayi**

Yeddinəfərlik ailəmizin birinci oğlu Ənuş idi. Biz üç qardaş, iki bacı idik: Ənuş, Kuroş, Daryuş, Həmidə və Vəhidə. Atam Maqsud Təbrizin yaxınlığında yerləşən Basmınc rayonundan idi. Biz mənşəcə oralıyıq. Anam Huriyyə İntizarifərəc evdar qadın, atamsa dərzi idi, Təbrizin keçmiş Mənsur (indiki Şəhid Behişti) dördyolunda dükanı vardı. Gəliri çox deyildi, amma dolana bilirdik.

Qardaşım Əlinin inqilabdan öncə Əli Şirazi kimi tanınan şirazlı bir dostu vardı. Bacısı Təbriz Dövlət Universitetində təhsil alırdı. O, həm bacısına baxmaq, həm də özü tək qalmamaq üçün Təbrizə köçmüşdü. Bacısı hicablı tələbələrdən idi. Onlar Təbrizin Hafiz xiyabanında qalırdılar. Bizimlə qonşu olduqlarına və şah rejiminə qarşı fəaliyyətlərinə görə Əli onunla tanış idi.

Əli hər gün gizlicə evə kitab gətirib balışın və ya mütəkkənin arasında gizlədir, yatan vaxtı çıxarıb oxuyurdu. Bu iş davam edir, onun inqilabi ruhiyyəsi hər gün güclənirdi.

---

[1] Şah dövründə İranın Kəşfiyyat və Təhlükəsizlik Təşkilatı

Əli Şirazi Əli ilə birlikdə Tərbiyət liseyində bir sinifdə oxuyurdu. Hamı icbari şəkildə Dirçəliş partiyasına üzv ediləndə Əli Şirazi bacısının universitet təhsilinə problem yaranmasın deyə blankı imzalamışdı. Liseydə Dirçəliş partiyasının blankını imzalamayan yeganə şagird isə Əli olmuşdu. O, etiraz edən direktora və müavininə demişdi: "Məgər siz azadlıqdan dəm vurmursunuz?! Mən də azadam və üzv olmaq istəmirəm!" Onlar atamla əlaqə saxlayıb demişdilər ki, bu hərəkəti oğluna problem yarada və onu azadlıqdan məhrum edə bilər. Atam Əli ilə çox danışmış, o isə razılaşmamışdı.

Bir gün direktorluqdan yenə Ənuşu (Əli) çağırdılar. Direktorun otağına girəndə bir neçə nəfərin mülki geyimdə onu gözlədiklərini görüb məsələnin nə yerdə olduğunu bilmişdi. Onların biri soruşmuşdu: "Niyə üzvlük blankını imzalamamısan?" Onlara qabaqkı cavabı vermişdi. Onlar Ənuşun müqavimətini görüb özləri ilə aparmış, 12 saata yaxın saxlamış, sonra isə, "İmzalamasan, sonun pis olacaq" -deyə hədələyib buraxmışdılar. Ertəsi gün bir daha blankı imzalamağa çağırmışdılar, o isə yenə imzalamamışdı.

***

Ənuş Əli Şirazi ilə münasibət qurandan, digərləri ilə birlikdə komanda yaradıb rejim əleyhinə

fəaliyyətlərə başlayandan sonra SAVAK onlardan şübhələnib Əli Şirazini həbs eləmək fikrinə düşdü.

Bu zaman Ənuş iclasda komandanın üzvlərinə dedi: "Bu gündən hamımızın adı Əlidir. Beləliklə, hər hansımız ələ keçib adının Əli olduğunu söyləsə, SAVAK çaşbaş qalıb Əli Şirazinin dostlarını tuta bilməyəcək".

İnqilabdan sonra Daryuşla mən də adımızı dəyişdirmək istəyirdik. Əli böyük oğul olduğuna görə ona dedik ki, sən gərək adını Məhəmməd qoyasan. O isə razılaşmayıb dedi: "Mən artıq Əliyəm. Sən adını Məhəmməd qoy". Beləliklə, mən Kuroş Məhəmməd oldum, Daryuş da Mehdi.

***

Sonralar Əli mənə bir söz dedi, onu başqa birinə də dediyini zənn etmirəm. Mənə dedi ki, aramızda qalsın, amma kaş inqilab başlayan günlərdə gedib SAVAK-da işləyəydim.

- Sən adicə blankı imzalamırdın, necə yəni SAVAK-da işləyəydim?! – deyə təəccüblə soruşdum.

– Bəli, o blankı imzalasaydım, problemim də olmazdı və asanlıqla SAVAK-a üzv ola bilərdim. Onların içinə girib məlumatlarını bayıra ötürərdim. Yəni o qorxunc təşkilata sızmış bir inqilabçı olardım. Bu zaman həbs etmək istədikləri adamlara dair məlumatları öyrənər, planlarına mane olardım. Mənsə bu imkanı asanlıqla əldən verdim.

***

Bizim qədim həyətimiz Böyük Hafiz xiyabanında yerləşirdi. Həyətin sonunda on-on beş toyuq saxlayırdıq. Bir gün Əlinin orada bir neçə aparat gizlətdiyini bildim. Orada yavaşca, səssiz-səmirsiz işləyirdi. Bir müddətdən sonra onları kiçik otağımıza gətirdi. Soruşdum ki, bunlar nədir? "Bu, çap maşınıdır, bu da kserokopiya aparatı" – deyib hər birindən istifadə qaydasını göstərdi. Şablon üzərində bəyanat çap edirdi. Kommersiya sahəsində təhsil aldığına görə çap və surətçıxarma aparatlarıyla tanış idi. O aparatlar əvvəlcə Əli Şirazigildə olmuşdu. SAVAK ondan şübhələnəndən sonra bizə gətirmişdilər.

Bir müddətdən sonra çap etməyi mənə öyrətdi, sonra da kiçik qardaşımız Mehdini bu işə cəlb elədi: o, aparatın dəstəyini fırladırdı. Çox şeyi mən ilk dəfə bu işlər əsnasında öyrəndim; məsələn, İmam Xomeyninin adını Əlidən eşitdim. Bəzi bəyanatların üstünə belə yazılmışdı: "Şəhidlərin və siddiqlərin Rəbbinin adı ilə".

Atamız bizim işlərimizi görəndə Əliyə deyirdi: "Oğul, bilib gələrlər, sizi həbs edərlər!" Əli də deyirdi ki, inşallah, heç nə olmaz. Beləliklə, evimiz bəyanatların yazılıb çoxaldıldığı ən böyük yerlərdən birinə çevrildi. Mən tez-tez çap edirdim, Əli oxuyurdu, sonra surəti çıxarılırdı.

***

Təbrizdə hərbi rejim və etiraz aksiyaları başlayandan sonra bazar tətil olundu, atamın dükanı da bağlandı. Maddi vəziyyətimiz çox da yaxşı olmadığına görə tətillər bizə problem yaradırdı. Bir dəfə Əli dedi ki, üçümüz də gedək, qəzet sataq. Ona dedim ki, indi hərbi rejim var, bayıra çıxmaq olmaz. Dedi: "Əgər üçümüz bir olsaq, heç nə edə bilməzlər. Həm də üstəlik, ailəmiz nə iləsə dolanmalıdır, yoxsa yox?! Əlimizi əlimizin üstünə qoyub gözləyə bilmərik".

O zaman səhər tezdən bir avtobus gəlib həmin günün qəzetlərini “Keyhan” qəzetinin redaksiyasının önünə qoyurdu, oradan satıcılara paylanırdı. Biz də gedib bir qədər qəzet götürür və şəhərdə satırdıq. Bir-iki dəfə əsgərlər bizi saxlayanda Əli onlara, "Biz qəzet satırıq, heç kimlə işimiz yoxdur" - dedi və bizi buraxdılar.

Bir neçə gündən sonra Əli yeni bir üsula əl atdı, hər qəzetin arasına İmam Xomeyninin bir bəyanatını və şəklini qoymağa başladı. Beləliklə, hərəmiz gündə satdığımız yüz qəzetlə üç yüz bəyanat və şəkil də yaymış olurduq. Bir gün mənə dedi: "Bu gün qəzet bizim bəyanatlarımızın bir hissəsini çap edib, yazıb ki, bunlar bu bəyanatlarla xalqı iğtişaşa təhrik edirlər". Qəzeti oxuyanda gördüm ki, bizim evimizdə yazıb yaydığımız bəyanatlardandır.

Mehdi ilə mən satılmış qəzetlərin pulunu bir daxıla atırdıq. Əli bizə deyirdi: "Siz ailəmizə kömək edin, mən də bir ehtiyaclı ailəyə kömək edim". O bu işdən ötrü atamdan icazə də aldı. Atam dedi: "Eybi yoxdur, hələlik bu pulla dolanarıq". Əli qəzetlərdən qazandığı pulu başsız qalmış yoxsul bir ailəyə verirdi.

O günlərdə qəzetlərin biri Əlini təxribatçı adlandırıb şəklini dərc etmişdi. Tanışların biri bunu atama xəbər verib dedi ki, oğluna de, bir neçə gün görkəmini dəyişdirsin. Əli də uzun müddət başına papaq qoydu və geyim tərzini dəyişdirdi.

***

Polis bölməsi bizim məhəlləmizin yaxınlığında, Ərk küçəsində yerləşirdi. Bir gecə bir polis xidmət yerinə gedəndə Əli və dostları onun revolver tapançasını alıb özünə demişdilər: "Səsin çıxmasın! Başını aşağı sal və düz bölməyə get. Biz arxanca gəlirik, bölməni ələ keçirəcəyik". Polis bölməyə doğru getmiş, Əli və dostları da Ərk küçəsinə girib qaçmışdılar. Bunları Əlinin özü mənə danışmışdı.

İslam inqilabı qələbə çalandan və Keşikçilər korpusu yaranandan sonra ona qoşulan ilk şəxslərdən biri Əli oldu.

# Ağır şərait

**Rza Celodari**

Məncildə keçirdiyimiz komando təlimlərinin son mərhələsində manqalara bölünüb su, yemək və odlu silah olmadan sıx meşənin içində bir həftə yaşamalı idik. Əli Təcəllayi bizim manqa komandirimiz oldu. Meşəyə buraxılmazdan öncə təlimçi pasdarların ciddi yoxlamaları başlandı. Hətta bircə saqqız belə götürməyə qoymurdular. Onlar yoxlanış zamanı Əlinin çantasından iki ədəd diş pastası tapdılar. Yoxlayan ondan soruşdu ki, bunlar nədir? Əli cavab verdi: "Diş məcunu. Vərdiş etmişəm, gecə dişlərimi fırçalamasam, yata bilmirəm".

O, diş məcununun plombunu qapağı ilə açıb sıxdı. Bir qədər diş məcunu bayıra çıxdı. Bundan sonra onları Əliyə verib istehza ilə dedi: "Əgər su tapsanız, bu məcundan da istifadə edərsiniz".

Yoxlanışdan sonra gecə vaxtı şimal meşələrinə yollandıq. Dərs zamanı meşədə sağ qalmağın yollarını, müxtəlif ilanları, canlı varlıqları, vəhşi heyvanları, quşları, meşə ağaclarını və meyvələri necə yeməyi öyrənmişdik. Bu bir həftəyə dözə bilməsəydik, kursdan ixrac olunacaqdıq.

Meşə həyatı başlandı. İlk iki gündə ağacların yarpaqlarından və kal meyvələrdən istifadə etdik. Su yox idi. Üçüncü gün Əli dedi ki, iki gün diş məcunu

yeyəcəyik. Hamının ürəyi bulandı. Dedik ki, biz torpaq yeyərik, amma diş məcunu yemərik. O, pastaların birini çantasından çıxardı, məcununu preslənmiş dibi ilə birlikdə bayıra çıxarıb dedi: "Bura gəlməzdən öncə bu iki məcunu çox diqqətlə balla doldurmuşam. Bu gündən ağac yarpağı ilə bal yeyəcəyik".

Onun bu zirəkliyi hamımızı həyəcanlandırdı. Həmin iki məcun son günə qədər meşə yeməklərimizin xuruşu oldu.

Yavaş-yavaş sağ qalmağa ümidvar olduq. Bir dəfə meşədə ölü bir quş tapıb günortaya yedik. Üçüncü gün bulanıq suyu olan kiçik bir bulaq tapdıq və susuzluq problemimiz təxminən aradan qalxdı. Dördüncü gün ov və yemək axtaranda bir daxma ilə rastlaşdıq. Orada qoca kişi ilə arvadı yaşayırdı. İki inəkləri də vardı. Beşinci gün inək südü içdik. Onlar bizə meşə həyatındakı təcrübələrindən danışdılar, çox faydalandıq. Onların köməyi ilə təmiz bir bulaq tapıb doyunca içdik. Altıncı və yeddinci günlərdə də ağac yarpaqları və diş məcununun içindəki balla qidalandıq və beləliklə, ağır meşə şəraitində sağ qalmaq həftəsini uğurla başa vurub qəbul olunduq.

# Əfqanıstan ezamiyyəti

**Nasir Bayraqi**

Əli 1980-ci ildə Keşikçilər korpusu tərəfindən Əfqanıstana ezam olundu. Ona verilən tapşırıq keçmiş Sovet işğalçılarına qarşı müharibədə əfqanıstanlı müsəlmanlara kömək etmək idi. Bu ezamiyyətdə mən də onunla birlikdə idim. Bizə üç müxtəlif sahədə tapşırıqlar verildi:

1. Komandirlik təlimi mərkəzi açmaq;
2. İmam Xomeyninin Əfqanıstandakı nümayəndəsini mühafizə etmək;
3. İslam Respublikasının nağd yardımlarını əfqanıstanlı mücahidlərə çatdırmaq.

Plana görə, biz başqa üç pasdarla birlikdə Zahidan korpusu vasitəsilə Əfqanıstana getməli idik. O zaman İran-Əfqanıstan sərhədlərinə Sovet ordusu nəzarət edirdi. Biz Əfqanıstan pasportu alandan sonra əfqanıstanlı qardaşların karvanı ilə birlikdə əvvəlcə Pakistana yola düşdük. Əfqanıstana gedən yeganə yol əlverişli olmadığına görə qərara alındı ki, bir müddət orada qalaq. Əli bu müddətdə bekar oturmadı, İmam Xomeyninin Pakistandakı nümayəndəsi ilə görüşüb bildirdi ki, Əfqanıstan yolunda pusquların qurulduğuna və İslam

Respublikasının nağd yardımlarının quldur dəstələr tərəfindən ələ keçiriləcəyinə dair şübhələr var.

Həmin görüşdə Əlinin təklifi ilə qərara alındı ki, pullar hamımızın arasında bölünsün, az bir qismi də imamın nümayəndəsində qalsın.

Əlinin növbəti addımı Pakistan müsəlmanlarının yürüşündə İmam Xomeyninin şəkillərinin yayılması oldu. Bu, Pakistanda ilk dəfə idi baş tuturdu. O, Küveytə şəhərində keçirilən yürüşlərin birində İmam Xomeyninin yüzdən çox şəklini payladı və yürüş iştirakçıları tərəfindən müsbət qarşılandı. Onlar bu şəkillərin birini polis bölməsinin önünə vurmuşdular. Bu iş Pakistanın təhlükəsizlik qüvvələri tərəfindən təqib olunmağımıza səbəb oldu. Əli qərara gəldi ki, tez Pakistandan çıxaq. Odur ki, bir gecə gizli şəkildə Küveytə şəhərindən Əfqanıstana yola düşdük.

Əli Əfqanıstanda yerli mücahidlərə təlim keçməklə bərabər, çox vaxt döyüş mövqelərinə gedirdi, müdafiə mövqeyinin vəziyyəti, canlı və texniki qüvvənin düzülüşü və atəş məsafələri barədə ona məlumat verirdilər. O, mücahidlərin komandirlərinə bütün sahələrdə lazımi tövsiyələri verirdi; bir neçə hücumda iştirak da etdi və şəxsi heyətə başçılığı üzərinə götürdü. O, Əfqanıstanın bir neçə yerində yürüşlər təşkil etdi, "Amerikaya ölüm" və "İsrailə ölüm" şüarları səsləndirdi. Əfqanıstanda komandirlik təlimi mərkəzi təsis etdi, təxminən üç yüz nəfərin etiqadi, əxlaqi, siyasi və hərbi sahələrdə təlim-tərbiyəsi ilə məşğul oldu. Əfqanıstanda qaldığı

dörd ay ərzində yerli mücahidlər onu hədsiz dərəcədə sevməyə başladılar.

İraq-İran müharibəsi başlayandan sonra Əli Əfqanıstanı tərk edib İrana qayıtdı. O, hətta görüş və istirahət üçün evinə də getmədi, birbaş cənub cəbhələrinə yollandı.

*"Pəyame-İnqilab" jurnalına müsahibə, dekabr 1980*

# Süsəngird Təcəllayinin sözlərində[2]

Müharibənin əvvəllərində, 1980-ci ilin məhərrəm ayında çoxlu israrla cənub əməliyyat qərargahından Dehlaviyyəyə hücum icazəsi aldım. Qardaş Rindinin başçılıq etdiyi 36 nəfərlik bir və ordunun kapitanı Əhmədinin başçılıq etdiyi xüsusi təyinatlı qüvvələrindən də başqa bir taqımla bu istiqamətə rəhbərlik mənə tapşırıldı. Hər iki taqım mənim nəzarətim altında işləyəcəkdi. Düşmən də Süsəngirdi müxtəlif istiqamətlərdən mühasirəyə almaq fikrinə düşmüşdü.

Biz korpus qüvvələri, Bəsic qüvvələri və müxtəlif müdafiə dəstələri ilə birlikdə Dehlaviyyə bölgəsinə yerləşmişdik. İraqın muzdur bəəsçi qoşunları 14 noyabr 1980-ci ildə səhər saat 9-da pasdar qardaşlara hücuma keçdilər. Bu döyüşlərdə onlarla tank,

---

[2] Əli Təcəllayinin Süsəngird barədə fikirlərinin üç mənbəyi vardır:

1. Məcnun adalarında, Aşura diviziyasının kəşfiyyat-diversiya səngərində yazdığı xatirələri;

2. "Pəyame-inqilab" jurnalına müsahibəsi;

3. Əməliyyatlar barədə yazılı məruzəsi.

Biz burada təkrar məqamları çıxmaqla və heç bir əlavəsiz olaraq, hər üç mənbədən istifadə etmişik.

avtomobil və zirehli maşın iştirak edirdi. Düşmən 4100-dən artıq piyada ilə irəliləyərkən pasdar qardaşların pusqusuna düşdü. İki saat vuruşandan sonra pasdarlar onlarla yaralı və şəhidi orada qoyub geri çəkilməyə, Dehlaviyyə səngərindəki qardaşlarla birlikdə müqavimət göstərməyə məcbur oldular.

Biz Süsəngirdə gələndə bura müdafiə mövqeyində idi və sayı çox az olan ordu qüvvələri Əhvazın yaxınlığına yerləşmişdi. Orada yalnız korpus və Bəsic qüvvələri partizan əməliyyatları həyata keçirirdilər. İmkanları zəif idi, aldıqları nəticə də ona uyğun olurdu.

Biz ezam olunanda şəhərdə vəziyyət normal idi. İraqlı qüvvələrin taktikası belədir ki, girmək istədikləri bölgəni bir neçə gün öncədən top və raketlə vururlar və mülki əhali şəhəri boşaldır. Süsəngird şəhəri Dehlaviyyədən sonra bombalanmağa başlamışdı. Bizim oradakı qardaşlarımız silah-sursat baxımından sıxıntıda olsalar da, axıra qədər müqavimət göstərdilər və düşmənin Sabilə tərəfdən yaxınlaşmasına imkan verməsinlər. Lakin Əhvaz magistralı düşmən tərəfindən bağlandı və Süsəngird mühasirəyə düşdü.

Noyabrın 15-də İraq artilleriyası gecədən səhərə qədər şəhəri vurdu. Səhər çağı canlı qüvvəni nizama salmaq istədik. Tanklar şəhərə çox yaxınlaşmışdı. Təxminən saat 11:30 dəqiqədə bir taqımın komandiri kapitan Əhmədi mənimlə əlaqə saxlayıb təkidlə geri

çəkilməli olduğumuzu bildirdi. O qardaşa cavab olaraq dedim ki, heç kimin geri çəkilməyə haqqı yoxdur, son nəfəsimizə qədər dayanacağıq. Qardaşlar hətta yaralı olmalarına, qanaxmalarına baxmayaraq, səngəri tərk etmək istəmirdilər.

Həmin gün Hərbi Hava Qüvvələrindən və Quru Qoşunların aviasiyasından nə qədər kömək istədiksə, haraya gələn olmadı. Nəhayət, düşmən onlarla tankını, zirehli maşınını və bir neçə cəsədini qoyub günortadan sonra saat 17:30 dəqiqədə geri çəkildi. Bu zaman mənə xəbər verdilər ki, Süsəngird-Əhvaz magistralı səhər saat 8-dən bağlanıb, düşmən qüvvələrinin bir qismi Allahu-əkbər dağları və Hüveyzə gölü tərəfdən şəhərə sarı irəliləyir. Şəhərdəki canlı qüvvəyə kömək etmək üçün gecə vaxtı Süsəngirdə yola düşdük, səhər saat 6-da oraya yerləşdik. Şəhərin xəstəxanasında ölü və yaralı əlindən yer yox idi. Dehlaviyyə döyüşündə qardaşlar qəhrəmanlıq etmiş, düşmən muzdurlarından çoxlu silah-sursat almışdılar.

Bizim qardaşlarımız düşmənin top, tank və raket hücumları, TOV və minaatanların atəşi altında can verəndə, biz o şəhidlərin bədənlərinin parçalarını toplayanda ordudakı qardaşlar orada deyildilər və biz xalqın arxamızda olduğunu hiss edərək qəribcəsinə vuruşur, qəribcəsinə ölürdük. Bu söz xalqa deyilməlidir və bunun nümunəsi çoxlu cəbhələrdə görünüb. Məncə, bu məsələnin ən böyük

səbəbi silahlı qüvvələr arasında koordinasiyanın olmamasıdır. Yəni məsul şəxslər işləri bir-biri ilə razılaşdırmaq yerinə, uğurların öz adlarına çıxmasına çalışırlar.

Bundan sonra yenə korpusa qayıtdım. Dehlaviyyə döyüşündən sonra gecə vaxtı xəbər verdilər ki, Süsəngird-Əhvaz yolu bağlanıb və bölgədə qalsaq, biz də qətliam ediləcəyik. Bu səbəbdən şəxsi heyəti gecə ikən Süsəngirdə gətirdik, səhər çağı nizama saldıq və şəhərdə təxminən min səkkiz yüz silahlı oldu. Təəssüf ki, döyüş başlayandan sonra canlı qüvvənin böyük hissəsi şəhəri tərk etdi və təxminən yüz əlli nəfər qaldı. Şəhərdəki korpus qüvvələrini nizama salıb bir neçə istiqamətə yerləşdirdik. Nəhayət, günorta nə şəhərdə, nə korpusda, nə də jandarmeriyanın sərhəd taborlarında kimsə qaldı. Axırda silah-sursatı partlatmaq qərarına gəldim və bunu etdim.

Günortadan sonra saat 4-də şəhərin müxtəlif yerlərində olan qardaşları topladım və axşam bir neçə yerdən şəhərə girib təmizləmə əməliyyatına, silah-sursat yığmağa başladıq. Gecə vaxtı şəxsi heyəti şəhərin bir neçə yerinə yerləşdirib məscidi qərargah etdik. Əlbəttə, şəhidlərimiz şəhərin ətrafında və çayın o tayında qaldı. Biz onları dəfn etməyə də vaxt tapmadıq və bu, bizim üçün həqiqətən, ağrılı idi.

Axşam qardaşlarla danışıb dedim: "Qardaşlar! Gəlin, cənnəti satın alaq". Hamımız təkbirlə bir-birimizlə və öz Allahımızla əhd bağladıq ki, bədənimizdəki son damla qanımıza qədər Bəəs rejiminin top, tank, avtomat, helikopter, MiQ və qvardiya qüvvələri qarşısında müqavimət göstərəcəyik.

Yenə şəhərə girdik, səhər çağı uşaqları dəstələrə bölüb strateji yerlərə yerləşdirdik. Noyabrın 16-da gecədən səhərə qədər şəhəri tank, top və minaatanlardan atəşə tutdular, sübh erkəndən Hüveyzə magistralı tərəfdən hücum başlandı. RPG, J3 və Kalaşnikov avtomatı ilə silahlanmış qardaşların bir neçəsi evlərin üstündə və küçələrdə mövqe seçib, şəhərə girmiş beş düşmən tankı ilə vuruşurdular.

Səhər saat 10-dan İraq tərəfi yenə şəhəri vurmağa başladı. Bu, onların şəhərə girişinə hazırlıq üçün idi. Lakin qardaşlar misilsiz cəsarət və qəhrəmanlıqla böyük işlər gördülər. İnanılası deyil, yalnız orada olub əyani surətdə görmək lazım idi. Uşaqlar silahsız halda tankların önündə duruş gətirirdilər. Hərədə cəmi yüz patron vardı, onunla üç-dörd gün müqavimət göstərməli idi. Biz hətta çirkli çala sularından içməyə məcbur olsaq da, uşaqlarda çox böyük ruh yüksəkliyi vardı.

Bir neçə saat vuruşandan və pasdar qardaşlardan bir şəhid verəndən sonra beş düşmən tankından üçünü vura bildik. Bu zaman düşmənin köməkçi

qüvvələri gəlib tankları şəhərdən çıxardılar. Bundan sonra yenə dörd tərəfdən artilleriya atəşinə başladılar. Evlər bir-bir uçur, bəzi qardaşlar yaralanırdı.

Təxminən saat 12-də Kərxəkur kanalı və Hüveyzə magistralı tərəfdən hücum başlandı. Qardaşlar yenə vuruşmağa başladılar. Bu döyüşlərdə də sıradan çıxarılmış dörd tanklarını və çoxlu yaralını qoyaraq geri çəkildilər.

Bu döyüşün yaralıları olduqca çox idi. Həmin gün iyirmi yeddi yaralımız oldu və çox təəssüf ki, həkimlər yaralılardan qabaq çamadanlarını hazırlayıb çayı keçdilər.

Qazandığımız qələbələrlə qardaşların ruhiyyəsi get-gedə güclənir, hücumlarını artırırdılar. Düşmən Dehlaviyyə-Süsəngird magistralı tərəfdən şəhərə daha çox yaxınlaşdığına görə qardaşların bir neçəsi körpüyə mina və TNT bombaları yerləşdirdilər. Döyüş çox güclü olduğuna görə, qardaşlar qərara gəldilər ki, körpünün o tərəfində qalmış bir neçə yaralını həm qərargah, həm də hospital sayılan məscidə gətirsinlər. Birinci maşın keçəndən sonra üç yaralının olduğu ikinci maşını körpünün üstündə vurdular, qardaşların üçü də şəhadətə qovuşdu.

Haqla batilin müharibəsində, top-tanklarına baxmayaraq, ağır zərbə almış muzdur bəəsçilər dəli kimi bütün evləri, xüsusən də bizim yerləşdiyimiz hündür tikililəri top, tank və Qrad raketləri ilə atəşə

tuturdular. Əlbəttə, döyüşün nəticəsi bizim xeyrimizə idi. Çünki bir qədər şəhid və yaralı verməklə onların güclü hücumlarını dəf etmiş, çoxlu tanklarını və zirehli maşınlarını sıradan çıxarmışdıq.

Önəmli olan qardaşların bir-biri ilə əməkdaşlığıydı. Onlar təkbirlə tankın önünə çıxır, müvəffəqiyyətlə qayıdır, bizə deyirdilər ki, dua edin, şəhər işğal olunmasın, Allahın, ümmətin və imamın qarşısında xəcalətli olmayaq. Bu gün bütün qardaşlar mehribancasına, vəhdət halında çiyin-çiyinə vuruşdular. Jandarmeriyada bir həkim də vardı, son iki gündə çox köməyi dəymişdi. Lakin acınacaqlı olan dərmanın, hətta bintin və merkuroxromun olmaması idi. Yaraları döşəkağı ilə bağlayırdılar. Yaralı qardaşların bir neçəsi məhz tibbi imkanlar olmadığına görə şəhadətə qovuşdu.

Şəhərdə qəribə ab-hava vardı, həqiqətən də, Kərbəla meydanı idi. Hər bir küçədə, hər bir evdə İslam əsgərlərinin, qəhrəmanlıq yaratmış cəsur aslanların pak qanı görünür, şəhər od içində yanırdı. Məsciddən və evlərdən yaralıların ah-naləsi ucalırdı. Həqiqətən də, onların fəryadlarına və məzlum xalqın duasına görə Allah-Taala bizə kömək edirdi.

Yenə sağ qalmış qüvvələri nizama salıb cəld müxtəlif evlərdə mövqe seçdik və şəhərin ətrafında keşik çəkməyə başladıq. Amerikanın muzduru olan bəəsçi dəlilər səhərə qədər şəhəri vurdular.

Bugünkü döyüşlərin nəticəsi çox yaxşı oldu. Qardaşlar gördülər ki, imanla və “Allahu-əkbər”lə, həqiqətən də, muzdurların burnunu ovmaq mümkündür.

Növbəti gün, noyabrın 17-də səhər tezdən yenə hücum başlandı. Köməkçi qüvvələr gəlmədiyinə görə qardaşlar narahat idilər. Əlbəttə, onlar şəhid olacaqlarından deyil, rəhbərləri Hüseyn (ə) kimi qərib qaldıqlarına, qəribcəsinə vuruşduqlarına görə narahat idilər. Onlar Hüseyn (ə) kimi ürəklərində danışırdılar: "Kimsə varmı bizə kömək etsin?!" Bizi narahat edən səbəb dostlarımızı itirməyimiz idi. Ən yaxın dostlarımız, ən yaxşı qardaşlarımız qanlarına qəltan olurdular. Hər halda, bədənini toplamağın imkansız olduğu bir cəsədi təsvir etmək, ya da cidd-cəhdlə şəhərdə qalmaq istəyən yaralı qardaşın iradəsini bəyan etmək mümkün deyil.

Döyüşün ikinci günündə səhər çağı yenidən iki səmtdən hücum başlandı. Bəəs qüvvələri bu döyüşlərdə Hüveyzə magistralı, Dehlaviyyə və Ehsaniyyə tərəfdən hücuma keçdilər. Qardaşlar çox rəşadətlə, diş və dırnaqları ilə müqavimət göstərdilər. Bu gün günortaya yaxın şəhərdə on iki iraqlı muzduru ələ keçirə, şəhərə girmiş beş tankın komandirini öldürə və muzdurların çoxunu qanına qəltan edə bildik. Əsirləri dindirəndə öyrəndik ki, on səkkiz xüsusi təyinatlı döyüşçü iki tərəfdən şəhərə daxil olub. Yaralı və ölülərin sayı da hər gün artırdı.

Təəssüf ki, bizimkilərdən bir neçəsi də düşmənə əsir düşdü. Onlar münasib fürsətdə qaçmaq üçün bir evdə gizlənmişdilər.

Bu gün düşmənin şəhərə atdığı Qrad mərmilərinin qəlpələri mənə və əməliyyat komandirinə də dəydi. Yaramı ağ parça ilə bağlayıb qardaşların köməyinə getdim. Bu gün baş vermiş başqa bir mühüm məsələ də jandarmeriya qüvvələrindən ərəb paltarı geyinmiş doqquz nəfərin ələ keçməsi oldu. İraqlılar qalib gələcəyi təqdirdə onlar sağ qalacaqdılar. Bu hadisə pasdarların, bəsicilərin və yanımızda olan bir neçə mülki insanın ruhiyyəsinə böyük təsir etdi. Bir neçə jandarm da yalnız məscidin önündə dayanıb kömək edirdi, oradakı bir-iki evi özləri üçün otelə çevirmişdilər.

Biz bu müddətdə ratsiya ilə Əhvazla əlaqə saxladıq, lakin təəssüf ki, kömək gəlmədi və iraqlılar mühasirəni daraltdılar. Sursatımız get-gedə bitirdi. Bu zaman düşmənə güclü zərbə endirib silah-sursatlarını, toplarını qənimət götürdük. Bu gün şəhərdə salamat yer qalmamışdı, qardaşların çoxu ya yaralanmış, ya da şəhid olmuşdu. Buna baxmayaraq, hər an daha da qərarlı şəkildə vuruşurdular. Bu gün Allahdan xəbərsiz olan muzdurlar topla məscidi vurdular, oradakı yaralılar yenidən yaralandılar.

Noyabrın 17-də səhər çağı mənə xəbər verdilər ki, köməkçi qüvvələr şəhərin yaxınlığındadırlar. Bizsə hələ inanmırdıq. Nəhayət, günortaya yaxın

qardaşlardan bir neçəsi ilə birlikdə magistrala tərəf gedib Keşikçilər korpusunun gəldiyini gördük.

Yüngül silahlı yüz əlli piyadanın çoxlu top, tank, minaatan və Qrad raketlərini məhv etdiyini, qənimət götürdüyünü gördüyünə görə, ordu və korpus qüvvələri gələndən sonra düşmənin canına lərzə düşdü və dərhal geri çəkildi. Əgər bizdə ağır silahlar olsaydı, onları torpaqlarımızdan daha tez çıxara bilərdik.

Ordu və korpusun artilleriya və aviasiyası tərəfindən məhv edilmiş düşmən tankları Kərxəkur və Mərada bütün səmanı tüstüyə bürümüşdü. Köməkçi qüvvələr pasdar qardaşlarla və öz komandirləri ilə birlikdə şəhərə girdilər, təmizləmə əməliyyatına başladıq, pərakəndə düşmən döyüşçülərini öldürdük, bir qismini də əsir tutduq.

Müharibə boyunca yaşadığım ən yaxşı xatirə və ən böyük sevinc Süsəngirdin mühasirəsinin İslam qüvvələri tərəfindən yarılması oldu. Bu qələbənin pik nöqtəsi o idi ki, Tasua günü səhər saat 11-də sağ qalmış təxminən on altı döyüşçü ilə birlikdə Süsəngird darvazasına doğru yola düşdük. Orada qardaşlara dedim: "Birlikdə Əhvaza doğru gedək, bəlkə yolu biz açdıq".

Məhərrəmin ikinci, ya da üçüncü günündə qardaşlar israrla deyirdilər ki, elə et, bu il Tasua və Aşura günlərini Kərbəlada olaq. Ümidimiz buna idi, söz vermişdik ki, dayanmayacağıq, məhərrəmin

səkkizinci günündə hücuma keçib irəliləyəcəyik. Lakin Allah Tasua və Aşuranı Süsəngirddə bizə hədiyyə etdi və Süsəngirdin özü Kərbəla oldu.

Yolda getdiyim yerdə düşmənlərin yanmış tanklarını görürdüm. İnanılmaz idi. Çünki biz dörd gün idi onların mühasirəyə aldığı şəhərin içindəydik. Həmin anda Əhvaz tərəfdən gələn, bəzən yoldan aşağı enən, bəzən sağa-sola dönən və ümumilikdə, Süsəngirdə doğru irəliləyən bir qrup adam gördüm. Bütün qardaşlara dedim ki, mövqe seçib atəşə hazır olun, düşmən olsalar, hamısını cəhənnəmə vasil edək. Bir neçə dəfə durbinlə baxıb gördüm ki, bizimkilərdir, bir neçə düşməni əsir tutub bizə tərəf gəlirlər. Yaxınlaşanda bildim ki, Təbriz korpusunun uşaqlarıdır, qardaş Nasir Bayraqinin başçılığı ilə mühasirəni yarıb qüdrətlə irəliləyirlər.

Vəsfəgəlməzdir; canlı qüvvənin bir-birinə çatarkən necə sevindiyi inanılmazdır. Çünki bizə kömək gələcəyini gözləmirdik, hamımız elə bilirdik ki, şəhid olacağıq. Həddən artıq sevinirdik. Nasirlə bir-birimizə doğru qaçdıq. Mən ona çatanda silahımı göyə atıb Nasiri qucaqladım. Hər ikimiz qucaqlaşıb ağlayırdıq. Yerə yıxılıb yolda diyirlənməyə başladıq, amma bir-birimizdən ayrıla bilmirdik. Digər təbrizli uşaqlar da mənim üstümə düşdülər. O anın sevincini təsvir etmək mümkün deyil. Hamı dua və şükür edir, bir-birini qucaqlayıb ağlayırdı. Əlbəttə, sevindiklərindən ağlayırdılar, acizliklərindən yox.

Bir-birimizi qucaqladığımız və Süsəngirdin mühasirəsinin yarıldığı o an mənim üçün müharibənin ən şirin anıdır. Mən bu gün yenə ayağımdan yaralandım. Əgər həmin anda beynimdən də vurulsaydım, narahat olmazdım. Çünki arxayın şəkildə şəhid olardım; Süsəngird artıq azad idi.

Amerikalı ərbablarının əlində alət olmuş səddamçı-yezidçi muzdurlar bu ümmətin, imamımızın sözünə və Mehriban Allahın məzlumlara vədinə uyğun olaraq, məğlub olmayacağını və Bəəs rejimini devirənədək vuruşacağını bilmirlər.

Məruzəmin sonunda ölkə rəhbərliyindən xahiş edirəm ki, çatışmazlıqların səbəblərini araşdırsınlar. Ən önəmlisi budur ki, Süsəngirdə hücumdan qabaqkı günlərdə kömək gəlməməsinin və ordu artilleriyasının atəş açmamasının səbəbi nə olmuşdur?[3] Bu, sözügedən çatışmazlıqlar üzündən həyatını itirmiş şəhidlərin sualıdır. Döyüşçü qardaşlar mənə dedilər ki, bunları mütləq xalqımıza çatdırım və vəziyyətimizin necə olduğunu söyləyim. Xalq səngərdə kimlərin kəsilmiş əl-ayaqlarını topladığımızı bilməlidir ki, onları lazımınca

[3] Hökumətin tabeliyində olan ordunun Keşikçilər korpusu və Bəsiclə əməkdaşlıq etməməsi ovaxtkı xain prezident Əbülhəsən Bəni-Sədrin xüsusi göstərişinin nəticəsi idi.

qiymətləndirsin. Korpusa, pasdar və bəsici qardaşlara lazımınca dəyər verilmir və bu, bizdə təəssüf doğurur. Biz döyüşçülərdə sual yaranıb ki, nə üçün korpus tankların önündə ölümə getməlidir? Halbuki tank korpusdan qabaqda getməli, avanqard olmalıdır. Qardaşlar deyirdilər ki, bu qədər ictimai dayağımız ola-ola biz nə üçün qəribcəsinə öldürülməliyik?! Hər halda, biz xalqı əmin edirik: Nə qədər ki biz varıq, bədənlərimizdə qan var, düşmənin ən kiçik zərbəsinin də qarşılıqsız qalmasına imkan verməyəcək, İslam yolunda son nəfəsimizədək vuruşacağıq!

# Özümlə fəxr edirdim

**Nəsibə Əbdüləlizadə**

Mən 1959-cu ildə Təbrizdə doğulmuş, 1979-cu ildə orta məktəbi bitirmişəm. Qardaşım Musa bir müddət idi Süsəngirddə vuruşan, şəxsi heyətə komandirlik edən Əli Təcəllayi adlı bir nəfəri tərifləyir, onun cəsarəti və qəhrəmanlığı barədə ağızdolusu danışırdı. Bir gün böyük bacım Musaya dedi: "Musa, xəbərin var, təriflədiyin Təcəllayi yaralanıb, Təbrizə gətiriblər". Musa təəccüblə soruşdu ki, hardadır? Bacım cavab verdi: "İmam Xomeyni xəstəxanasında". Mən Təcəllayinin barəsində o qədər eşitmişdim ki, özünü də görmək istəyirdim.

Universitetdə İmam Xomeyni hərəkatının ardıcılı olan tələbələr tərəfindən kitab sərgisi təşkil olunmuşdu. Mən də orada fəaliyyət göstərirdim. Ertəsi gün universitetə gedəndə sərginin rəhbəri bir qoca qadının sığorta kitabçasını mənə verib dedi ki, İmam Xomeyni xəstəxanasına apar, baş həkim imzalasın. Xəstəxanaya gedib işimi görəndən sonra orada müalicə olunan Təcəllayi yadıma düşdü və fürsəti fövtə verməyib onu görmək istədim. Sonralar adının Rəhman olduğunu öyrəndiyim bir pasdarı görüb soruşdum: "Bağışlayın, qardaş, Əli Təcəllayi

burdadır?" Soruşdu ki, Əli Təcəllayi? Dedim ki, bəli. Əl işarəsi ilə otağını göstərdi.

Barəsində eşitdiklərimdən onu ucaboy, enlikürək bir adam kimi təsəvvür edirdim. Lakin palataya girəndə təsəvvürümdən tamamilə fərqlənən çox gənc və məsum bir adamla üzləşdim. Buna baxmayaraq, özümü itirdim və onunla danışa bilmədim. Yalnız salam verib farsca dedim: "Halınız necədir? Bir şey lazımdır?" O, salamımın cavabını verib dedi: "Yox, çox sağ olun". Palatadan çıxdım. Məndən sonra Rəhman içəri girib Təcəllayiyə demişdi: "Bir qız səni axtarırdı. Bura gəldi?" Bu da onun diqqətini cəlb etmişdi.

Axşam Təcəllayi ilə görüşüm barədə bacıma danışıb dedim: "Mən elə bilirdim ki, Təcəllayi iri cüssəli bir kişidir. Sən demə, məsum bir uşaq imiş!" Bu zaman anam öskürüb işarə ilə bildirdi ki, atanızın belə sözlərdən xoşu gəlmir. Sonra da dedi: "Daha lazım deyil gedəsən. Nə mənası var?!" Dedim: "Bunun yaşı azdır, ana, həm də çoxları onu görməyə gedir". Bacım soruşdu: "Ona nə apardın?" Dedim ki, heç nə, əliboş getdim. Narahat olub dedi: "Çox səhv etmisən. Gərək bir gül, meyvə və ya kitab alaydın, əliboş niyə gedirdin?!" Qərara gəldim ki, bu bəhanə ilə sabah yenə onu görməyə gedim. Bu dəfə ona "Allahı tanımağın ən yaxşı yolu" kitabını aldım, üstünə də belə yazdım: "Fədakar döyüşçü ağa Əli Təcəllayiyə təqdim olunur". Kitabı verəndə pulunu

vermək istəyirdi, almadım. Həmin gün bildim ki, o da Təbrizdəndir, hətta əvvəllər bizim məhəlləmizdə yaşayıb, ancaq bir-birimizi görməmişik. Ailələrimiz bir-birini tanısalar da, bu barədə heç vaxt söhbət düşməmişdi.

Həmin gün günortadan sonra bacım Təcəllayini ziyarət etməyə gedəndə ondan soruşmuşdu: "Bacınızın ailə qurmaq fikri var, yoxsa yox?" Bacım cavab vermişdi ki, baxır, elçi kim ola. Təcəllayi demişdi: "Mən özüm. Əgər mən bacınıza elçi gəlsəm, problem olar, yoxsa yox?" Bacım özünü itirib demişdi: "Mən çalışaram ki, bu evlilik baş tutsun. Ondan böyük olduğuma görə bilirəm ki, cavabı "yox" olacaq, ancaq mən valideynlərimlə danışaram".

Bacım məndən böyük olduğuna görə ailə qurmaq barədə əsla fikirləşmirdim. Lakin Təcəllayinin bu fikrini biləndən sonra nəinki acığım gəlmədi, hətta sevindim də. Hər halda, bu evlilik baş tutdu və qərara gəldik ki, birlikdə danışaq. O hələ xəstəxanada yatırdı, söhbətimiz də orada baş tutdu. Həmin gün Əli dedi: "Mən cəbhədən qayıdanda fikirləşmədiyim yeganə şey evlənmək idi. Çünki həm yaşım azdır, həm də cəbhənin problemləri var. Qərarım beləydi ki, əgər sağ qalsam, sonralar evlənərəm. Ancaq bəlkə də qismət bu imiş ki, tez ailə qurum".

Sonra sözünə davam etdi:

- Mən sizinlə evlənsəm, bəlkə bir gün, bərkə bir il, bəlkə on il sizə qonaq olacağam; bilmirəm. Yox, elə bilməyin ki, qəsdən şəhid olmaq istəyirəm. Şəhidlik arzumdur, ancaq yer üzündə mənim köməyimə ehtiyacı olan bir məzlumun olduğunu hiss etdiyim qədərincə onun yanında olacağam. Əgər bu hadisələr zamanı şəhadətə qovuşsam da, yeganə arzuma çatmış olacağam. Lakin nə qədər ki sağam, istəyirəm ki, sizi xoşbəxt edim, siz də məni. Əminəm ki, belə də olacaq.

Əli xəstəxanada iki ay yatdı. Cümə axşamı günü xəstəxanadan buraxıldı, şənbə günü də valideynlərini elçiliyə göndərdi. Mənim ata-anam bu evliliyə qarşı çıxır, deyirdilər ki, o, pasdardır, bir gün şəhid olacaq və sən dul qalacaqsan. Lakin mən çox istəyirdim ki, Əli ilə ailə qurum, hətta bir il, ya da bir ay onunla birlikdə yaşamaqdan ötrü gecə-gündüz dua edirdim.

Həmin günlərdə bir jurnalda Süsəngird döyüşü barədə müsahibəsini oxudum. O, müsahibənin bir yerində deyirdi: "Tasua axşamı idi. Uşaqlara dedim ki, cənnəti almağa hazırsınız? Hamı təkbir dedi, biz azsaylı dəstəmizlə və Kalaşnikov avtomatı ilə tanklarla döyüşə getdik". Mən bu müsahibədən o qədər təsirlənmişdim ki, Əli ilə izdivacımın ən əsas səbəbinin bu olduğunu söyləsəm, yalan olmaz.

Valideynlərimin razılıq verməsi dörd ay yarım sürdü. Anam Əlini çox sevdiyimi bilib atamla

danışdı və onu razı saldı. Buna baxmayaraq, hələ də ürəklərində narazılıq qalmışdı. Buna görə də, Əli elçiliyə gələndə anam məni pisləməyə başladı. Mən otaqda qapının yanında dayanıb eşidirdim. Anam Əliyə dedi:

- Açıq şəkildə deməliyəm ki, qızımın iki böyük eybi var.

Bu sözü eşidəndə çox həyəcanlandım, fikirləşdim ki, görəsən, nə deyəcək. O, əlavə etdi:

- Birinci eybi budur ki, çox nadinc qızdır, ola bilsin, sözlərinə qulaq asmasın və bir çox işləri görməsin. Əslində, heç iş də bacarmır, adi qayğanaq da bişirə bilmir.

Bunu doğru deyirdi. Mən kiçik olduğuma görə bütün işləri böyük bacım görürdü. Başını aşağı salmış Əli çox vüqarlı və məsum şəkildə dedi:

- Eybi yox, inşallah, bizim evdə öyrənər.

- Qızımın ikinci böyük eybi budur ki, murdar-təmiz məsələlərinə qarşı vasvasılığı var, atasının üzünü gündə üç dəfə suya çəkir, - anam mübaliğə ilə dedi.

- Su aydınnıxdi, - deyə Əli Təbriz ləhcəsi ilə cavab verdi.

- Yaxşı, əgər su aydınlıqdırsa, mən bu suyu elə indicə tökdüm sizin evinizə. Sonra şikayətlənməyəsən ki, mənə demədin, - Əliyə bata bilmədiyini görən anam hirslə söylədi.

Əli gülüb dedi:

- Yaxşı.

Yadımdadır, nişanlı olduğumuz zaman bir gün cəbhədən gələndə ona dedim:

- Olar ki, üzünü suya çəkəsən?

- Yox, əşi, bekar qalıbsan, - deyə cavab verdi.

– Xahiş edirəm, get, üzünü suya çək. Məlum deyil ki, cəbhədə harda olmusan, nə qədər qana əl vurmusan.

Əli hövsələsiz halda üzünü yumağa getdi. Anam pəncərədən baxa-baxa ona dedi: "Əli ağa, su aydınnıxdi!"

Əli anamın bütün şərtlərini qəbul edib razılığa gələndən sonra qapının arxasındaca şükür səcdəsi etdim.

Əli 1981-ci ilin ramazan ayında nikah əqdini oxutmaq üçün Ayətullah Mədənidən vaxt aldı. İftardan qabaq yaxınlarımızla ayətullahın evinə kəbin kəsdirməyə getdik. Ora çatanda Əli məni kənara çəkib dedi:

- Eşitmişəm ki, gəlinin kəbin süfrəsindəki duası mütləq qəbul olar.

Nə istəyəcəyini təxmin edirdim. O, əlavə etdi:

- Allahdan mənə şəhadət istə.

Bəlkə də bir qız üçün, özü də həyatının ən önəmli günündə ən çətin olan işi məndən istəyirdi. Ağlayıb yalvararaq dedim ki, bunu məndən istəmə. O isə razılaşmayıb dedi:

- Elə bilmə ki, eqoistlik edirəm; yox, məsələ bu deyil. Əgər məni səmimi-qəlbdən sevdiyini iddia edirsənsə, mənim üçün bu xoşbəxtliyi də istəməlisən.

Belə bir dua etmək asan deyildi, çünki onsuz yaşamağın çətin olacağını bilirdim. Nəfəsim ona bənd olmuşdu, fikirləşirdim ki, o olmasa, mən də yoxam. Lakin onu həddən artıq sevdiyimə və özünü xoşbəxt hiss etməsini istədiyimə görə bunu etdim. Ağa Mədəni nikah əqdimizi oxuyanda mən ağlayıb dua edirdim ki, İlahi, Əlini arzusuna çatdır. O qədər ağladım ki, ağa Mədəni bilib dedi: "Qızım, mən başqa dualar da bilirəm. İlahi, bunlara saleh oğul və qızlar bəxş elə! Aqibətlərini xeyirli elə!"

***

"Xudaya! Ey məbudum! Arzum şəhadətdir. Ürəyimdəki bu arzumun ardınca qaçıram, bu köhnə arzumu şəhərlərdə, qürbət diyarlarda, cəbhələrdə axtarıram. Hər yerdə onun ardınca düşmüşəm, ancaq bilmirəm ki, mənim şəhidliyim səhrada olacaq, dağ və düzdə olacaq, yoxsa sularda; kimin əli ilə, kimin tərəfindən. Lakin bilirəm ki, bunun elmi Sənin yanında, vasitəsi Sənin qüdrətli əlindədir. Öz lütfüylə şəhadəti qismət edən, rəhməti ilə bu diləyin qəbul olunmasını təmin edən Sənsən. O zaman, ey Rəbbim, bu yeganə, ən mühüm, ilk və son arzumu qəbul elə, ona nail olmağın yolunu mən günahkar bəndənə asanlaşdır, onun yerini yaxınlaşdır! Məni şəhadətimi yazmadığın yollarda yorma. Çünki zəif bədənimin buna taqəti yoxdur.

İlahi! Sənin rəhmətinə möhtacam! İlahi! Sənin rəhmətinə ümidvaram; məni məyus eləmə! İlahi! Öz lütf və kəräminlə bu arzumu həyata keçir! İlahi! Öz rəhmətinlə günahlarımı bağışla. İlahi! Bizi Məhəmməd və Ali-Məhəmmədin (s) şəfaətindən binəsib etmə! İlahi! Məni ağa İmam Hüseynin (ə) və vəfalı dostları Ayətullah Behiştinin, Mədəninin, Dəstiqeybin, Səduqinin, Bahünərin, Rəcayinin, Əşrəfi İsfahaninin və Ayətullah Mütəhhərinin şəfaətlərindən binəsib etmə! İlahi! Öz rəhmətinlə günahlarımı bağışla və bu aciz bəndənə şəhadət

səadəti bəxş elə! Çünki sən tükənməz mərhəmət sahibisən!"[4]

Nikah əqdi oxunandan sonra Əli ağa Mədəniyə dedi: "Hacı ağa, mənim xanımıma qara çadra vermirsiz?" O dedi: "Əlbəttə. Çadra gətirin". İki çadralıq parça gətirdilər. Pasdarların biri dedi: "Hacı ağa, birini artıq gətiriblər". Ağa Mədəni dedi: "Eybi yoxdur. Bu da gələcək Zeynəb xanım üçün". Mən ağa Mədəniyə, pasdarlara və Əlinin üzünə baxdım. Belə xarakterlərə malik bir şəxslə birgə yaşayacağıma görə fəxr edirdim. Həmin gün ağa Mədəni ilə bir neçə şəkil də çəkdirdik. Maraqlıdır ki, həmin gün orada olan bütün pasdarlar və ağa Mədəninin özü də şəhadətə qovuşdu.

Mən Əli ilə 22 avqust 1981-ci ildə ailə qurdum və müştərək həyatımıza başladıq. Üçillik həyatın isə yalnız yeddi ayını birlikdə olduq.

***

Bir dəfə Əli cəbhədən gələndə zarafata dedim: "Mən eşitmişəm ki, həzrət Əli (ə) ilə həzrət Zəhra (ə) işləri bölübmüşlər. Məsələn, həzrət Zəhra (ə) odun gətirirmiş, həzrət Əli də mərci təmizləyirmiş!" Əli bunu eşidən kimi dedi: "Onda qalx, nə qədər mərci varsa, gətir, təmizləyim". Mən də gedib gətirdim və o təmizləməyə başladı. Bu zaman qapının zəngi çalındı. Əli tez mərci podnosunu stolun altına itələdi.

---

[4] Əli Təcəllayinin yazılı münacatı

Soruşdum ki, niyə belə edirsən? Dedi: "Əgər mənim anam olsa, görüb narahat olar. Əgən sənin anan olsa, elə bilər ki, səni çox ərköyünləşdirirəm. Kimdirsə, gəlib-getsin, sonra sənin qulluğundayam".

Fəthülmübin əməliyyatından sonra məzuniyyətə gəldi. Həmin gün qonağımız vardı. Hamamda yuyunub çıxandan sonra anası dedi: "Bütün hamam yaralı bandlarla doludur. Əli yaralanıb?" Dedim: "Xəbərim yoxdur. Özü bir söz deməyib". Yaxınlaşıb soruşdum:

– Əli, yaralanmısan?

– Mühüm bir şey deyil. Ayağıma xırda bir qəlpə girib. Özü çıxacaq.

Bir-iki gündən sonra namaz üstə qışqırıb huşunu itirdi. Özünə gələndə ayağının ağrısından qıvrılırdı. Onu tez xəstəxanaya apardıq. Həkim müayinədən və rentgen şəklinə baxandan sonra dedi:

– Bu qəlpə bayıra çıxmaq yerinə daha dərinə gedib və ayağın sinirinə yaxınlaşıb. Mən təəccüb edirəm ki, sən buna necə dözə bilmisən.

O, Əlini dərhal əməliyyata apardı, on gündən sonra da məzuniyyət yazdı ki, ayağı irinləməsin.

Ertəsi gün əşyalarını topladığını gördüm. Həbib Paşayi adlı bir dostu ilə cəbhəyə hazırlaşırdı.

– Həqiqətən də, ayağının bu halı ilə getmək istəyirsən? – deyə soruşdum.

– Məcburam. İki batalyon döyüşçü məni gözləyir, – deyə cavab verdi.

Mən heç vaxt onun getməsinə mane olmurdum.

Amma həmin gün ilk dəfə hirslənib dedim:

– Mən deyirəm ki, qal, sağal, sonra get. Amma indi ki gedirsən, dua edəcəm ki, inşallah, ayağını kəssinlər, sən də məcbur olub evdə qalasan.

Məni dahiyanə baxışla süzüb dedi:

– Sən bizi ayağımızın kəsilməsi ilə qorxudursan?! Biz baş verməyə gedirik, ayaq nədir ki!

Çox utandım, xəcalətimdən başımı qaldıra bilmədim. O, əlavə etdi:

– Heç vaxt bizi ayaq itkisi ilə qorxutma.

Ondan üzr istədim və atamdan xahiş etdim ki, onu dəmiryol vağzalına aparsın.

Atam qayıdanda dedi: "Kaş sən də gəlib görəydin! Vağzalda iki batalyon adam Əlini gözləyirdi. Deyirdilər ki, o gəlməsə, qatara minməyəcəyik".

Əli ilə qısa həyatımızın nəticəsi Məryəm və Hənnanə adlı iki qız oldu. Əli uşaqlarını vəsfəgəlməz həddə sevirdi, evdə çox olmasa da, gələndə elə rəftar edirdi ki, onlar da onu çox sevirdilər.

Bir dəfə Hənnanə xəstələndi, onu xəstəxanaya apardıq. Adətən, belə problemlər zamanı Əlini narahat etmirdim. Ancaq həmin gün onun xəstəxanaya gəldiyini görüb çox təəccübləndim. Soruşdum ki, sənə kimsə xəbər verib? Dedi ki, yox. Soruşdum ki, bəs haradan bildin? Dedi ki, yuxuda gördüm. On yeddi saat dayanmadan maşın sürüb özünü yetirmişdi. Həmin gün Hənnanənin vəziyyəti

yaxşı deyildi, xəstəxanada təşənnüc (qıc olma) keçirmişdi. Mən Əlini evə istirahətə göndərdim.

Sonradan anam mənə dedi: "Əli xəstəxanadan gələndən sonra gedib namazını qıldı. Bərkdən ağladığını eşidib təəccüblə dedim: "Əli ağa, sən cəbhədə bu qədər dərdə dözürsən, indi bir uşağın xəstəliyinə dözə bilmirsən?" Dedi: "Yox, ana, dözə bilmədim. Hənnanəni o vəziyyətdə görmək mənə çox ağır gəldi".

Bir həftə qaldı, uşağın tam sağaldığına əmin olandan sonra cəbhəyə qayıtdı.

Bir dəfə qapının zəngi çalındı. Məryəm dedi: "Ay can, ata gəldi!" Əli cəmi dörd gün idi cəbhəyə getmişdi. Dedim ki, yox, əzizim, atan təzə gedib, o deyil. Lakin qapını açandan sonra yenə qışqırdı: "Gördün, dedim ki, atamdır!" Sevindiyimdən uçmağa qalmışdım. Əliyə dedim: "Səndən nə əcəb! Günəş hansı tərəfdən çıxıb?! Sən ki dörd gün idi getmişdin, nə oldu belə tez qayıtdın?" Gülüb dedi:

- Qardaş Səfəvi dedi ki, uşaqların hamısı məzuniyyətə gedib, sən də iki-üç günlüyə gedə bilərsən. Mən də gəldim.

- Bu qədər yolu iki-üç gündən ötrü gəlmisən?! Gedəydin Əhvaza, Əndimeşkə.

Çox gözəl bir təbəssümlə dedi:

- Onda necə sübut edərdim ki, sizi çox sevirəm?! İstəyirəm biləsən ki, mənə iki gün də məzuniyyət

versələr, həmin iki günü sizin yanınızda olmaq istəyərəm.

Bir dəfə iyirmi gün zəng vura bilmədi. Zəng vurmayanda bilirdim ki, yəqin, işi var, zəng vurmağa macal tapmır.

# Avtomat Əli

**Məhəmmədhüseyn Cəfəri, Cavad Salehi**

Əli yeni döyüşçülərə təlim keçərkən hərbi manevrləri elə qüdrətlə icra edirdi ki, çox tezliklə korpus uşaqları arasında şöhrəti zirvəyə qalxdı. Qısalan qundaqlı G3 avtomatı və MG3 pulemyotu onun əlinin silahları idi. Sürünən uşaqların ayaqlarının ətrafına elə atəş açırdı ki, heç kim dabanını da qaldırmağa cürət etmirdi. Üstəlik, bunu avtomat rejimində edirdi. Buna görə də, əvvəllərdə Avtomat Əli kimi məşhurlaşmışdı.

Əli dini məsələlərə də çox bağlı idi, düşünürdü ki, bütün tələbkarlıqları dinin özündən qaynaqlanır. Bəzən tələbkarlıqlarını "Düşmənləri qorxutmaq üçün kafirlərə qarşı bacardığınız qədər qüvvə və döyüş atları tədarük edin" ayəsi ilə əsaslandırırdı. O düşünürdü ki, təlim zamanı yaralansaq, hətta şəhid versək də, əvəzində cəbhədə itkimiz az olacaq; burada nə qədər çox tər töksək, döyüş zamanı az qanımız tökülər.

Dəfələrlə komandirlərdən eşitmişəm ki, Təcəllayinin əlinin altından çıxmış döyüşçülər əməliyyatda ruh yüksəkliyinə malik olur, təkbaşına bir bölük düşmənlə döyüşə girirlər. Əlinin əmr və təlimlərin icrasında tələbkarlıq, dəqiqlik və çeviklik ənənəsi digər təlimçilərə də keçirdi.

Biz Təbrizin Xasiban düşərgəsində təlim keçmişdik. Düşərgənin hərbi bölməsinin komandiri Əli Təcəllayi idi. Mən və təlim komandasının bütün şəxsi heyəti ikinci-üçüncü axşamdan başa düşmüşdük ki, gərək çəkmə ilə, tam hazır vəziyyətdə yataq. Məhz buna görə Əlinin təkrarlı gecə məşqləri zamanı özümüzü çox da itirmirdik.

Əli yeddinci axşam taktika təlimçiləri ilə birlikdə bizə pis bir plan düşündü. Onlar kazarma qarovulunu tərk-silah edəndən, əl-ayaqlarını bağlayandan sonra gecənin yarısı qorxunc qışqırtılarla kazarmaya tökülüşdülər. Uşaqları bayıra çıxarmaq üçün həm döyüş güllələrindən istifadə etdilər, həm də kustar bombalardan və gözyaşardıcı qazlardan. Həmin gecə başımıza elə oyun açdılar ki, öncəki məşqlərdən fərqli olaraq, dözə bilmədik, özümüzü acınacaqlı şəkildə səhər düzülüşünə yetirdik, gecənin sonlarında da kazarmaya qayıtdıq. Hamımız düşünürdük ki, bu qədər atəş açıldığına görə, yəqin, beş-altı ölü və yaralımız olacaq. Kazarmaya qayıdanda gördük ki, Allahın köməyi ilə itkimiz olmayıb. Lakin tikanlı məftillər üzərində süründüklərinə, pilləkənə, daşa-divara dəydiklərinə görə, istisnasız olaraq, bütün uşaqların üz-başları, əl-ayaqları yaralanmışdı.

Sübh namazı vaxtı hamı şikayətlənməyə başladı. Uşaqlar deyirdilər: "Bu, təlim deyil, intihardır!" Təsadüfən, həmin gün Təbriz korpusunun ovaxtkı

komandiri Ali-İshaq düşərgəyə gəldi. Uşaqların bir qismi ona yaxınlaşıb etiraz etməyə başladı. Ali-İshaq Əlini və təlim keçən digər pasdarları çağırdı. Əli dedi: "Mən tələbkarlığıma və sərtliyimə görə özümü müqəssir bilmirəm. Lakin hərbi sursatdan təyin olunmuş miqdardan artıq istifadə edib dövlət büdcəsinə ziyan vurduğuma görə hamının önündə cəzalanmağa hazıram". Digər pasdarlar da Əli ilə həmfikir oldular. Ali-İshaq cəza növünü onların öz öhdəsinə buraxdı. Əli dərhal dedi: "Bizi maşının arxasına bağlayıb yerlə sürüyün". Qollarını çəfiyə şalı ilə taxtaya, taxtanı da üçmetrlik iplə furqonun arxasına möhkəm bağladıq. Bu cəzanı səkkiz təlimçinin hamısı çəkməli idi.

İlk mərhələdə üçünü hazırladıq. Ali-İshaq sükanın arxasına keçdi. Düşərgənin yanındakı Xasiban kəndinə getdiyinə görə, üzünü çəfiyə ilə bağladı ki, tanınmasın. Maşın yola düşməzdən öncə sevinirdik, amma düşərgənin cənub qapısından çıxıb sürətini artıranda hamımız peşman olduq. Onların yerdə sürünmə səhnəsi o qədər əzabverici idi ki, vəsfediləsi deyil. Maşının sürəti bəzən saatda 50 km-ə çatırdı. On dəqiqədən sonra Ali-İshaq maşınla düşərgəyə girəndə həmin üç nəfərin üz-başını görüb çox narahat olduq. Uşaqların bəzisi ağladı da. Paltar və çəkmələri cırılıb parçalanmış, bədənlərinin, qol və dizlərinin dərisi soyulmuşdu, bəzi yerlərindən qan axırdı.

Onları açandan sonra növbəti üç nəfər yaxınlaşdı. Əli də onların arasındaydı. Biz bildirdik ki, bu qədər kifayətdir, Əli isə dedi: "Biz Kürdüstanda daha ağır səhnələr görmüşük. Bunlar onun yanında heçnədir". Nə qədər çalışdıqsa, fikirlərindən döndərə bilmədik. Hərəsinə bir dəst əlavə paltar verdik, xahişlə razı saldıq ki, paltarlarının üstündən geyinsinlər, kəmərlərini möhkəm bağlasınlar ki, az xəsarət alsınlar. Bu üç nəfər də eyni qanlı görkəmdə qayıtdı. Əlinin vəziyyətini görəndə hamımız ağladıq. Mən ona dedim: "Axı bu nə iş idi, gördün?!" Bədəni parça-parça olsa da, gülüb dedi: "Cəza!" Dedim:

– Axı bu necə cəza növüdür?!

– Əksinə, bu, çox lazımlıydı; bədənlərimiz çox bərkidi.

Uşaqlar o qədər narahat olmuşdular ki, bu sözlərlə sakitləşə bilmirdilər. Əli vəziyyəti görüb qanlı bədəni və cırıq paltarlarıyla, həm də xüsusi heybətlə uşaqların önündə dayanıb dedi: "Mən təkbir deyirəm, siz də təkrar edin". Sonra ucadan qışqırdı: "Allahu-əkbər!" Uşaqlar da ürəkdən "Allahu-əkbər" qışqırdılar. Əlinin başında qəhvəyi rəngli yun papaq vardı. Əlini qaldırıb təkbir dediyi yerdə Şəhid Xəlil Fateh onun şəklini çəkdi və bu səhnə həmişəlik tarixdə qaldı.

Təkbir dediyimiz yerdə birdən Xasiban kəndinin qocalı-gəncli, qadınlı-kişili bütün əhalisinin bel və külünglə qəzəbli halda düşərgəyə sarı gəldiyini

gördük. Düşərgənin komandiri Əliyə dedi: "Bu həngaməni özün qoparmısan, indi də get, camaatı sakitləşdir". Onlar düşərgənin alçaq divarlarının üstünə düzülmüş ağ sürahilərin arxasına çatdılar. Əli o vəziyyətdə onlara yaxınlaşıb soruşdu: "Bura niyə gəlmisiz?"

– Buranı yerlə bir etməyə gəlmişik, – deyə cavab verdilər.

– Nə üçün?

– Çünki bura korpus deyil, SAVAK-dır.

Onlar hamıdan öncə maşının sürücüsünü cəzalandırmaq istəyirdilər. Əli onlara dedi:

– Yox, səhv edirsiz, bura korpusdur. Maşının arxasına bağlanmağı da biz özümüz istədik.

– Nə üçün? Ağlınızı itirmisiz?! – deyə soruşdular.

– Bu, bir təlim idi.

– Bu necə təlimdir?! Bu, intihardır, təlim deyil!

Əli bir qədər Kürdüstanın vəziyyətindən, əks-inqilabçı qüvvələrin döyüşçülərə verdikləri işgəncələrdən danışıb onları qane etdi, sonra dedi:

– Biz bu təlimləri keçirik ki, bədənimiz bərkisin, iradə və imanlarımız güclənsin və əks-inqilabçılara qarşı mübarizə apara bilək.

Kəndlilər Əlinin sözlərini maraqla dinlədikləri yerdə Əli əlini qaldırıb qışqırdı: "Allahu-əkbər!" Camaat da coşqu ilə təkrarladı və məsələ həllini tapdı.

Həmin gün günorta çağı uşaqların arasında pıçapıç düşdüyünü hiss etdim. Danışırdılar ki, İslamın aydın göstərişinə əsasən, kim bədəninə xəsarət yetirsə, böyük günaha batmış olur. Bu isə Təcəllayiyə və digər pasdarlara şamil olurdu. Məsələ ilə maraqlanıb gördük ki, bu fikirlərin mənbəyi korpusa üzv olmuş iki-üç universitet tələbəsidir. Bu zümzümələr yavaş-yavaş incə yerlərə gedib çıxırdı. Əli həmin tələbələri və digər döyüşçüləri toplayıb dedi:

- Mən demək istəyirəm ki, biz eynilə İslamın göstərişinə əməl etdik.

- Hansı dəlillə bunu söyləyirsən? – deyə tələbələrin biri soruşdu.

Əli yenə "Düşmənləri qorxutmaq üçün kafirlərə qarşı bacardığınız qədər qüvvə və döyüş atları tədarük edin" ayəsini oxuyub əlavə etdi:

- Biz özümüzü gücləndirmək üçün ölümlə nəticələnməyəcəyinə əmin olduğumuz hər bir işi görməliyik. Gərək düşməni kiçik saymayaq.

Onun bu bir-iki cümləsi etirazlara son qoydu, tələbələr Əlidən və digər pasdarlardan üzr istədilər.

# Ezamiyyət əmri

**Şəhid Əli Təcəllayi**

Fəthülmübin əməliyyatından[5] öncə idi. Korpusun mənim əməliyyatda iştirakımın qarşısını almasından uzun müddət sonra qarşıda böyük bir əməliyyat olacağını öyrənmişdim. Qərara gəlmişdim ki, nəyin bahasına olursa-olsun, bu əməliyyatda iştirak edim. Bilirdim ki, bu, korpusdan uzaqlaşmağımla da nəticələnə bilər.

Bir gün Tehranda keçirilən bir komissiya iclasından qayıdıb korpusa gedəndə qardaşların fərqli ab-havada olduqlarını gördüm. Soruşanda dedilər ki, qardaşların bir qismi gələcək əməliyyatda iştirak etmək üçün cəbhəyə göndəriləcək. O qədər sevinirdim ki, yerə-göyə sığmırdım. Tez təlim mərkəzinə getdim. Orada da mövzu kimin cəbhəyə gedəcəyi idi. Hamı deyirdi ki, səni cəbhəyə qoymayacaqlar. Lakin bilmirdilər ki, daha məndə cəbhədən ayrı qalmaq taqəti yoxdur. Cəbhədən uzaq qalmaq mənim üçün balığın sudan ayrı qalması kimi idi. Təxminən iki-üç ay idi hər gecə Allahla münacat və İmam Mehdiyə (ə) təvəssül edirdim ki, yenə

---

[5] Fəthülmübin əməliyyatı 1982-ci ilin 22 martında cənub cəbhəsində Şuş və Dezfulun qərb bölgələrinin azadlığı məqsədi ilə baş tutmuşdur.

əməliyyatda iştirak edə bilim. Gecə-gündüz işim Allaha yalvarıb ağlamaqdan ibarət olmuşdu.

Tez Təbrizə getdim, bölgə komandiri qardaş Çitçianla telefonla danışdım ki, mənim adımı da cəbhəyə gedənlər siyahısına yazsın. O, tez-tez təkrarlayırdı ki, siz səbirli olun, ancaq mən israrla deyirdim: "Bu dəfə məni cəbhədən saxlaya bilməzsiniz!" Axırda mənə dedi: "Bir dəqiqə gözləyin, görüm adınız siyahıda var, yoxsa yox". Həyəcanla dedim ki, buyurun. Qardaş Çitçian baxıb dedi: "Siz cəbhəyə seçilmisiniz, amma bu şərtlə ki, göndərilən hər iki batalyona başçılıq edəsiniz". Cəld cavab verdim: "Yox, mən iki batalyon şəxsi heyətin məsuliyyətini götürə bilmərəm". O isə mənim cəbhəyə getməyimin bu şərtə bağlı olduğunu bildirdi.

Tez evə gedib yoldaşıma dedim: "Əşyalarımı hazırla, nəyə ehtiyacın varsa de, alım. Sabah cəbhəyə gedəcəm". Sevinməklə bərabər, şəxsi heyətə rəhbərliyə görə narahat idim. Həyat yoldaşım bunu hiss edib soruşdu:

– Niyə narahatsan?

– Şəxsi heyətə rəhbərliyi mənə tapşırıblar, – dedim.

– Sənin rəhbərlik bacarığın var, nəyə görə narahatsan ki?!

Çox gərgin gün idi. Axşam yoldaşımla danışandan sonra yatmazdan öncə namaz qıldım, həmişəki kimi, Fərəc duasını oxuyub yatdım.

Gecə yuxuda gördüm ki, bütün şəxsi heyət cəbhəyə getməyə hazırlaşıb. Sürücümüz Həbib ağadan, "Ezamiyyət əmri kimdədir?" – deyə soruşanda cavab verdi: "Əmr yazılmayıb". Ezamiyyət əmrini almaq üçün Əməliyyat bölməsinə getmək istəyəndə maşının önü bir səhraya çevrildi, bir nəfərin başçılıq etdiyi atlı dəstə bizə yaxınlaşdı. Mən atlıları görüb maşından endim. Komandirləri əlinin işarəsi ilə məni yanına çağırdı. Ona yaxınlaşdım. Mənə bir məktub verdi. Soruşdum:

- Ağa, bu nədir?

- Bu, sənin ezamiyyət əmrindir. Sən bu şəxsi heyətin hamısının komandirisən, - dedi.

O anda bildim ki, bu adam İmam Mehdidir (ə). Əlini tutub demək istədim ki, üzərimə qoyduğu bu məsuliyyətə qarşılıq olaraq, qiyamət günü mənə şəfaət sözü versin, ancaq birdən gözdən itdi və mən yuxudan oyandım.

Təxminən bir saat ağladım. Həyat yoldaşım da oyandı. Yuxumu danışdım. Mənə təskinlik verib deyirdi: "Daha niyə ağlayırsan?! Gərək sevinəsən ki, imam bu vəzifəni sənə tapşırıb". Nəhayət, bu yuxudan sonra daha inamla və Allah-Taalaya imanla vəzifəni qəbul etdim. İmam Mehdinin (ə) özünün komandirliyi ilə – bunu əməliyyat zamanı bir neçə

dəfə müşahidə etdik – Riqabiyyədəki düşmən qüvvələrini məhvetmə əməliyyatı tam qələbə ilə başa çatdı.[6]

Mən Fəthülmübin əməliyyatında Şəhid Qazi Təbatəbai və Şəhid Mədəni batalyonlarına rəhbərlik edirdim. Bizim tapşırığımız Riqabiyyəyə hücum edib düşmənin Mışdağ yüksəkliklərinin yanındakı ehtiyat qüvvələrini məhv etmək idi. Hücumumuzdan bir gün qabaq irəliləmə əmri verildi, batalyonlar hədəfə doğru yolun yarısını gedəndən sonra ratsiya ilə xəbər verdilər ki, qayıdın, əməliyyat olmayacaq. Döyüşçülərin çoxu narahat oldu. Ertəsi gün isə yenidən hərəkət əmri verildi və batalyonlar hazırlaşıb yola düşdülər. Mən bu mərhələnin kiçik bir hissəsi barədə bir xatirə yazmaq istəyirəm.

Təxminən günorta saat 12-də İslam qüvvələri tərəfindən əsir tutulmuş düşmən döyüşçüləri dəstə-dəstə geriyə göndərilirdilər. Bu zaman qardaşlar iki düşmən komandirini mənim yanıma gətirib dedilər: "Qardaş Əli, bunları Mışdağda səngərin içindən tutmuşuq". İraqlı komandir məni görən kimi diqqətlə baxıb birtəhər ağzını açdı: "Sən Təcəllayi?" Düşmən komandirindən soyadımı eşidib çox təəccübləndim. Əlbəttə, bu o komandirin zəkasını və dəqiqliyini göstərirdi. Dedim ki, bəli, Təcəllayiyəm.

---

[6] Məcnun adaları, Aşura diviziyasının kəşfiyyat-diviziya səngəri, 06.03.85.

Rabitəçilərin birini özümlə aparmışdım. Qardaş Bənayi Hərbi Hava Qüvvələrinin giziri idi, könüllü şəkildə cəbhəyə gəlmişdi, ingiliscə də bilirdi. Ona dedim: "Bu komandirlə danış, de ki, göstərdiyim planda şəxsi qüvvələrinin mövqeyini, müdafiə xətlərini və hərbi imkanlarını mənə izah etsin".

Xatırladığım qədərincə, Abdullah Kamil adlı general idi. O, cavabdan qaçmağa və yarımçıq məlumatlar verməyə çalışırdı. Nə qədər israr etdim ki, daha dəqiq və tam danışsın, o isə razılaşmadı. Bir komandirin məlumatlarının daha çox olduğunu bildiyimə görə rabitəçimə dedim: "Ona de ki, danışmasa, edam edəcəyəm". Axırda uşaqlara dedim ki, aparın təpənin kənarına. Ayağının yan-yörəsinə avtomatla atəş açdım. Elə bildi ki, daha işi bitib. Qorxudan rəngi ağarmış, dili tutulmuşdu. Birtəhər dedi ki, yaxşı, danışaram. Yenə planın başına keçdik, canlı qüvvələrinin vəziyyətini, imkanlarını, bir neçə gün öncə Riqabiyyəyə hücumda iştirak etmiş tanklarının yerini və yolunu izah etdi. Bizim qətiyyətimizi görən müavini bütün vəziyyəti komandirindən də aydın şəkildə başa saldı. Sonra onlara su və yemək verdik. Qardaşların biri poqonlarını söküb yadigar götürdü. Bir qartal və bir neçə ulduz vardı. Digər əsirlərdən seçilsinlər deyə qollarına ağ parça bağladım, qardaşların birinə təhvil verib dedim ki, bunları tez qardaş Rəhim Səfəvinin yanına aparın, məlumatlarından istifadə etsinlər.

500-600 nəfərlik bir əsir kolonu yola düşəndə həmin komandir dedi: "Mən gərək kolonun önündən gedim. Mən komandirəm, əsgərin, zabitin arxasınca getməməliyəm". Bu zaman qardaşların biri istehzalı gülüşlə ingiliscə dedi: "Sizin komandirlik dövrünüz bitdi. İslam Respublikasında əsgərlə komandir birdir". Həmin komandirlə müavinini kolonun içində geriyə göndərdik.[7]

Fəthülmübin əməliyyatının davamında başqa bir hadisə də baş verdi. İkinci gün hərəkət əmrini alanda, öncəki manevrə uyğun olaraq, qardaş Davud Noşadla Məcid Xanlının başçılıq etdiyi Qazi Təbatəbai batalyonunu düşmənin Mışdağ dağının arxasındakı ehtiyat qüvvələrini məhv etməyə göndərdim. Təxminən axşam saat 10-da, tapşırığa uyğun olaraq, batalyonun bütün keçidləri açılmışdı, yalnız bir manqanın keçidi qalmışdı. Bu zaman ratsiyadan rabitəçi qardaşımız Şəhid Səid Fəqihin səsini eşitdim: "Ya Hüseyn! Ya Hüseyn!" Nə baş verdiyini soruşanda dedi: "Biz döyüşə girdik". Əslində, Riqabiyyə əməliyyatı onların döyüşü ilə başlandı. Təpənin arxasından düşmənin silah-sursatlarının və texnikalarının partlayışından göyə qalxan alovları görürdüm. Tez qardaş Rəhim Səfəvi ilə əlaqə saxlayıb dedim: "Qardaş Rəhim, Qazi

---

[7] Məcnun adaları, Aşura diviziyasının kəşfiyyat-diversiya səngəri, 06.03.85.

batalyonu döyüşə girib". O, digər batalyonların hələ minalanmış sahələrə çatmadan bizim batalyonumuzun döyüşə girdiyinə görə çox narahat oldu. Hər halda, əlimizdən bir şey gəlmirdi. Yalnız İmam Mehdidən (ə) onlara kömək etməsini istəyirdim. Tez-tez soruşurdum ki, vəziyyəti məruzə etsinlər. Gecənin yarısınacan vəziyyətlərinin yaxşı olduğunu bildirirdilər, ancaq birdən dedilər ki, biz mühasirəyə düşmüşük, hər tərəfdən atəş açırlar. Bunu tez qardaş Rəhim Səfəviyə məruzə etdim.

Səhərə yaxın bir neçə dəfə vəzifəmizi öyrənmək və Riqabiyyədə qələbə olmayacağı təqdirdə Qazi batalyonunun geri çəkilməsi barədə qərar qəbul etmək üçün batalyonla əlaqə saxladım. Onlar bütün mərhələlərdə dedilər ki, geri qayıtmayacağıq, son nəfəsimizə qədər vuruşacağıq. Bu sözlərinə və Allah-Taalanın yardımına inamla səhərədək vuruşdular.

Hava işıqlaşmağa az qalmış azmış Mədəni batalyonunu çox çətinliklə tapa bildik. Onları tez Mışdağın arxasındakı dərənin ortasından keçirdim. Cəld bir batalyonu Mışdağ yüksəkliklərinə, birini qardaş Mustafa Mövləvinin və Əkbər Səbzinin başçılığı ilə topxananı tutmağa, üçüncüsünü də mühasirədən çıxmaq üçün Qazi batalyonuna köməyə göndərdim. Qazi batalyonu təxminən 45 dəqiqədən sonra əlaqə saxlayıb dedi ki, mühasirədən çıxdıq və təyin olunmuş hədəf tam nəzarətimizdədir.

Cəld köməkçi qüvvələri göndərdim, hamısı mövqeyi boşaltmağa başladılar. Qazi batalyonunun döyüşdüyü yerə çatanda gördüm ki, düşmən cəsədləri bütün kanallarda üst-üstə yığılıb, çanta və paltarları da səngərin kənarındadır. Sonradan araşdıranda bildim ki, biz hücuma keçən axşam oraya bölgə ilə tanış olmayan yeni qüvvələr gətiriblər. Dəyişilmiş şəxsi heyət də öz əşyalarını toplayıb ki, sabah oradan getsin. Beləliklə, çox hazırlıqsız yaxalanmışdılar.

Əməliyyatın bir gün təxirə salınması bizə ən böyük ilahi yardım oldu, düşmənlərin çoxunun məhv edilməsi ilə nəticələndi. Əslində, bizim döyüşçülərimiz mühasirədə deyildilər, Mışdağdan və Riqabiyyədən qaçan düşmən qüvvələri müdafiə mövqeyi seçmək üçün geri çəkilərkən Qazi batalyonu ilə rastlaşmışdılar. Bizim uşaqlarımız da elə bilmişdilər ki, düşmənə köməkçi qüvvələr gəlib.[8]

***

Qeybi yardım elə məsələdir ki, həqiqətən də, hər şeydən çox ona güvənmək olar. Briqada və ya batalyonda vəzifəsi olan qardaşların çoxu plan hazırlayan zaman dalana dirənəndə deyirlər ki, bu məsələni İmam Mehdinin (ə) özü və əsgərləri həll edib bizə yol açsınlar. Biz də düşünürük ki, bu, öz gücümüz deyil, biz, xüsusən də bəndəniz bu ağır məsuliyyətləri üzərinə götürəcək adam deyiləm. Çünki nə hərbi mütəxəssisəm, nə də hərbi təhsil almışam. Biz əvvəlki məhəllə uşaqlarıyıq, indi hərəmiz bir vəzifəyə keçmişik, üzərimizə gücümüzdən artıq məsuliyyət götürmüşük. Lakin ümidvarıq ki, inşallah, həzrət Mehdinin (ə) özü əsgərləri ilə əməliyyat günü bizə kömək edəcək, əməliyyatla və onun planı ilə bağlı bütün dalanlarda

---

[8] Məcnun adaları, Aşura diviziyasının kəşfiyyat-diversiya səngəri, 06.03.85.

problemlərimiz qeybi qüvvələr və mələklər vasitəsilə həll olunacaq.[9]

[9] Əli Təcəllayinin Korpusun Müharibə Sənədləri Mərkəzinə müsahibəsindən, 18.03.82.

# Gözəl bir məktub

Salam, qızım Məryəm. Bu gün cümə axşamı, 21 iyul 1983-cü ildir. İki gündür Piranşəhr bölgəsində Vəlfəcr-2 əməliyyatı başlayıb. Allah-Taalanın köməyi ilə bəəsçi kafirlər məhv edilirlər. Bu arada, İslam ordusundan da Allahın dərgahına şəhidlər hədiyyə olunur.

Qızım! Bura haqla batilin mübarizə yeridir. İnsan burada Allahı, axirəti və maddi həyatın puçluğunu dərk edir, insanın və onun ilahi yaranışının üstünlüyünü görür. Qızım! İndi atan Qəmtərə dağının yamacında Malik Əjdər adına batalyonun komandir səngərindədir. Yaranmış fürsətdən istifadə edib səninlə bir qədər dərdləşmək istəyirəm.

Qızım, insan bu yolu qət etməkdədir. Quranın aydın ayəsinə əsasən, "Allah iman gətirənlərin dostudur, onları zülmətdən çıxarıb işığa tərəf yönəldər".[10] Bəşər cəhalət, maddiyyat və nöqsanlıq zülmətindən ilahi elm və nur vadisinə yönəldilir, bu problemlərə dözməklə yaradana çatır, bu nur karvanı Allah görüşünə doğru baş alır və İmam Xomeyninin Quran sözündən ibarət karvanının gur səsi bütün dünyaya yayılır.

---

[10] Bəqərə, 257.

Qızım! Yalnız ilahi yolda qəlblər Allaha yaxınlıq məqamına nail olur, torpaq dünyanın, nəfs və şeytan yolunun təhlükəli labirintlərindən çıxış yeri görünür, insan siddiq və müxlislərin məqamından ibarət son mənzilinə çatır.

Qızım! Allah Quranın 95-ci surəsində əncirlə zeytuna and içir ki, biz insanı ən yaxşı, ən yüksək təbiətdə, əzəmətdə, ən gözəl şəkil və görkəmdə yaratdıq, axırda onu ən aşağı dərəcəyə endirdik; yalnız Allaha iman gətirib Onun bəyəndiyi yaxşı əməllərlə məşğul olanlardan başqa. Odur ki, qızım, əsl və əbədi xoşbəxtlik beş etiqad prinsipinə inamdan, əbədi axirət həyatına hazırlıq olan bir neçə günlük həyatda onlara əməl etməkdən ibarətdir.

Qızım! İnsan özünün ölüm halındakı vəziyyətindən xəbərdar olanda, bərzəx aləminin nə olduğunu, insanın bərzəxdən böyük qiyamətə aparılmasının, bəşəriyyətin sual-cavab üçün Allah-Taalanın hüzuruna toplaşmasının, şəhid və möminlərin şəfaətinin, Kövsərin, cənnət və cəhənnəmin nə olduğunu dərk edəndə Allah-Taalanın böyüklüyünü, mütləq qüdrəti, bu dünyanı və insanın görmədiyi metafizik aləmi öz şüuru qədərincə anlayır. İnsan bu məsələləri dərk edərək kamil həyat sürür və insaniyyətin yüksək dərəcələrinə nail olur.

Qızım! Bu gün həyat bir çox insanlar üçün başqa şəklə düşüb. Bir qrup qüvvə öz vəhşilikləri və nəfsi

meyilləri naminə bəşəriyyəti fəsada sürükləmək istəyirlər. Bu gün bir çox toplumlarda insanları mənəviyyat və həqiqətdən uzaqlaşdırıblar, dünya miqyasında bir çox təşkilatlar insanları əsl ilahi dəyərlərdən uzaqlaşdırmağa, maddi həyatda, torpaq dünyanın aldadıcı və davamsız gözəlliklərində məhv etməyə çalışırlar. Bəzi əllər bu ilahi varlığı dünyanın ən dəyərsiz dərəcəsinə endirmək istəyirlər. Qızım! Əgər insan bu yolla getsə, o qədər tənəzzül edər ki, Allahın bəxş etdiyi bütün ömrünü və varlıq sərvətini zikr, səcdə, ibadət və Allahın razılığı üçün çalışmaq yerinə əfsanəvi nağıllar danışmağa sərf edər, zahiri hörmətini və yetişməmiş bir ömrünü qorumaqdan ötrü maddi həyatın səmərələrindən uzaq qəlblə dünyadan köçər, yaşadığı ömrə həsrətlə baxar, əməllərinin peşmanlığı bütün vücudunu bürüyər.

Qızım! Allah-Taala dini göndərib ki, bizə xeyirli olan, tərəqqi və təkamülə maneçilik törətməyən işlər bəlli olsun, xeyir verməyən, cəhənnəmə sürükləyən uzun nəfs arzularının yolu bağlansın. Din insanı əbədi həyata aparan göstərişləri çatdırır. Qızım, bu ilahi təlimləri diqqətlə öyrən, Qurani-kərimin əmrlərinə əməl et ki, İslam inqilabı nəslindən, Allahın nişanələrindən və şəhidlər qanının mühafizəçilərindən olan varlıq səmərən təkamülə çatsın, Allah-Taalanın sənə verdiyi istedad və potensialdan da maksimum istifadə edəsən.

Qızım! Belə olsa, dünyadan köçəndə sevincək və yüngül olacaqsan, çünki maddi dünyadan kamilləşərək keçmiş və Allahla əlaqə qurmuşsan; ölümdən qorxmayacaq, əksinə, onu çox sevəcəksən.

Qızım! Övladının boynunda haqqı olan bir ata kimi xahiş edirəm, ilahi göstərişlərə əməl edəsən. Bu zaman ömrün boşuna keçməz, pak və zərif qəlbinə batil hakim olmaz.

Qızım! Allah Nur surəsinin 37-ci ayəsində buyurur: "O kəslər ki, nə ticarət, nə alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırar. Onlar qəlblərin və gözlərin haldan-hala düşəcəyi bir gündən (qiyamət günüdən) qorxarlar".

Qızım! Bu dünyanın maddi həyatı və onun aldadıcı gözəllikləri ilğım kimidir. İlğım isə heç zaman insanı doyura bilməz. Nəticədə, ömür hədər gedər və dünyanın həqiqi tanrısının hüzurunda xəcalətli halda sorğu-sual edilərsən.

Qızım! Bu gün Allahın dininə və İslam inqilabına qarşı çıxanların, bu şəhidpərvər torpaqda İslam ordusu ilə vuruşanların da bir məqsədi var. Onların yolu ilğımdan ibarətdir, İslam ordusu isə əsl bulaq və həqiqi insani dəyər ardıncadır. Onlar öz qanlarına bələşib Allah nurundan ibarət olan bulaqdan su içirlər.

Qızım! Bu ilahi ordu ilahi rəhbəri ilə birlikdə həqiqət suyu yolunda hərəkət etdiyinə görə Allah

düşmənlərinin batil xəyallarını və mənfur fikirlərini puç edəcək, həzrət Mehdinin (ə) rəhbərlik etdiyi ilahi yolu öz qanıyla bütün dünyaya göstərəcək.

Qızım! Ümidvaram, bu öyüd-nəsihətlərdən və bu inqilabın fədailərindən dərs alıb dünya və axirət həyatında həqiqət suyunun və Allah nurunun ardınca olacaqsan.

Atan Əli
Piranşəhr cəbhəsi

# Komandirlik kursu

**Tağı Qəhrəmanniya, Əhməd Sövdagər**

Müharibə zamanı Keşikçilər korpusunun komandirlik kursu yox idi və uşaqlar bu təlimi orduda keçirdilər. Qardaş Rəhim Səfəvi hər dəfə pasdarların beş-altı nəfərini bu kursa göndərirdi. Vəlfəcr-4 əməliyyatından sonra, Xatəm qərargahının Əməliyyat planı xidmətinin rəisi olduğu zaman Əli Təcəllayi də ordunun komandirlik kursuna göndərildi.

Kurs başlanandan dörd ay sonra Tehrana Əlini görməyə getdim. Allah rəhmət eləsin, Hüseyn İmami ilə görüşdüm. Mənə dedi: "Qəhrəmani, dostun qiyamət adamdır! Hamının yanında hörməti var". Soruşdum ki, nəyə görə? Dedi ki, özündən soruşarsan. İnstitutun həyətində Əlini tapıb dedim: "Əli, İmami nə deyir?" Gülüb dedi: "Bir şey deyil". Sonra cibindən bir kağız çıxarıb mənə verdi. Müdafiə nazirliyinin Quru Qoşunlarının komandanı polkovnik Həsəni Sədinin Rəhim Səfəviyə məktubuydu. O, korpusdan xahiş etmişdi ki, Əli Təcəllayini təlim keçmək üçün ordunun institutunda saxlasınlar. Kurs bitəndə da Əli oranın ən nümunəvi məzunlarından biri elan olundu.

***

Əli ordu zabitlərinin keçdiyi dərslərdə korpusu və onun müharibədəki çıxışını müdafiə edirdi. Əlbəttə, o, korpusun və Bəsicin fəaliyyətlərini sual altına salmaq istəyənlərə qarşı həmişə sərt etiraz etmişdi. Orada isə zabit müəllimlər Əlinin saysız-hesabsız suallarından təngə gəlmişdilər. Bir gün müəllimlərin biri mənə yaxınlaşıb dedi: "Dostuna de ki, mənimlə bu qədər mübahisə etməsin. Onun tənqidləri doğrudur, bilirəm ki, o, əsasnaməni kökündən qəbul etmir. Dəlilləri də məqbuldur, amma mənim vəzifəm bu əsasnaməni öyrətməkdir".

Qeyd etməliyəm ki, təlim boyunca nə vaxt əməliyyat başlayırdısa, dərsləri buraxıb hərbi birləşmələrə qoşulurduq. Kurs zamanı iki əməliyyat oldu. Onların biri Xeybər əməliyyatı idi. Bir-birimizdən uzaq olduğumuza görə mən Əlini görmədim. Digər əməliyyatda da o, Əməliyyat bölməsindəydi, mənsə Kəşfiyyatda. Əlbəttə, Əlinin iclaslardakı özünəməxsus arqument və əsaslandırmaları sayəsində bu əməliyyat növbəti ilə qədər təxirə salındı.

# Şəhid Təcəllayi Xeybər əməliyyatı[11] barədə[12]

Bismillahir-Rəhmanir-Rəhim. La həvlə və la quvvətə illa billahil-əliyyil-əzim.

İslam İnqilabının Böyük Rəhbəri və Ali Baş Komandan həzrət İmam Xomeyniyə, hörmətli şəhid ailələrinə, İslam inqilabının şəhidlərinə, xüsusən də Məcnun adalarında böyük qəhrəmanlıq göstərmiş Xeybər şəhidlərinə sonsuz salamlar olsun!

Xeybər əməliyyatından bir ilə yaxın vaxt ötür. Bu əməliyyat Ramazan əməliyyatından sonra, İslam Respublikasının strateji dəyişikliyi zamanı baş tutmuşdur. Bu yeni strategiya qısamüddətli, habelə Müslim ibn Əqil və Vəlfəcr kimi uzunmüddətli əməliyyatlarla davam etdi və Xeybər əməliyyatı ilə sonlandı. Mübaliğəsiz demək olar ki, bu əməliyyat dünyanın siyasi tarixini, siyasi-hərbi gedişini dəyişdirdi. Xeybər əməliyyatının necə əhəmiyyətli olduğunu dərk etmək üçün regionun siyasi və hərbi vəziyyəti barədə bir qədər məlumat vermək istəyirəm.

---

[11] Xeybər əməliyyatı 22 fevral 1984-cü ildə cənub cəbhəsində Məcnun adalarını və Dəclənin şərq sahilini ələ keçirmək məqsədilə baş tutmuşdur.

[12] 1985-ci ilin martında Təbrizin yerli telekanalında azəricə yayımlanan verilişdə qonaq qismində çıxışının stenoqramı

Orta Şərq bölgəsi qədimdən bəri coğrafi baxımdan iki şərq və qərb supergücü arasında bölünüb və bu bölgü onların arasında güc balansı yaradıb. Lakin son dönəmlərdə şərq supergücü olan Sovet İttifaqının Misirdəki mövqeyi zəiflədi, bunun ardınca bu müharibədə İraq Amerikaya yaxınlaşdı, ən mühümü, İslam inqilabından sonra İran hər iki supergücün əlindən çıxdı və bir neçə ildir mübariz Əfqanıstan xalqı da SSRİ əleyhinə mübarizəyə başlamışdır. Hərbi və iqtisadi mövqeyi, xüsusən də zəngin enerji qaynaqları məlun şahın dövründə İranla İraq, habelə Misirlə İsrail arasında qarşıdurmaya səbəb olub, sonda Livan məsələləri ortaya çıxıb. Demək olar ki, bu proses son onilliklərdə Amerikanın xeyrinə tamamlanıb. Yalnız İran hər iki supergücdən müstəqil şəkildə öz ayağı üstə dayanmışdır.

Statistikaya əsasən, dünya neftinin 57 faizi və dünya qazının 25 faizi bu regiondan təmin olunur. Yalnız bunun özü iki supergüc arasında siyasi qarşıdurmalara, siyasi-hərbi müdaxilələrə ən böyük səbəb olmuşdur.

Bölgədə həyata keçirdiyimiz hərbi əməliyyatların coğrafiyasını dəqiq göstərmək üçün İran-İraq sərhədləri və onun ümumi vəziyyəti barədə xəritə üzərindən məlumat verməli, sonra əməliyyatı ümumi şəkildə şərh etməliyəm.

Gördüyünüz bu xəritə İranla İraqın xəritəsidir. Bu nöqtələr sərhəd xəttidir; cənubdan başlayıb İranın qərbinə və şimal-qərbinə qədər davam edir. Bubiyan və Məcnun adalarının, Fav yarımadasının, Fars körfəzi regionunun, strateji Bəsrə-Bağdad-əl-İmarə magistralının xüsusi əhəmiyyətinə görə, Ramazan əməliyyatından sonra bu plan üzərində işləndi və nəhayət, 1984-cü ilin martında Allah-Taalanın lütfünə və İslam döyüşçülərinin iman və fədakarlığına inamla İraqın neftlə zəngin olan bu bölgəsində, Küveyt və Ərəbistana gedən strateji Bəsrə-Bağdad-əl-İmarə magistralında işlər başlandı.

Bu regionun iqtisadi və coğrafi əhəmiyyətinə gəlincə isə, strateji Bəsrə magistralını ələ keçirməyi, iki düşmən qoşununu bir-birindən ayırmağı qeyd etmək lazımdır. Bu isə sonda hər ikisinin məhvinə və daha önəmlisi, İraqın neft platformalarına nəzarət etməyə səbəb olacaqdı. Xəritədə gördüyünüz bu hissə Hur əl-Hüveyzə bataqlıqlarındakı Cənubi Məcnun, bu da Şimali Məcnun adalarıdır. Adaların sahəsi önəmli deyil, önəmli olan budur ki, İraqın neft ehtiyatlarının altıda biri bu adalarda yerləşir, onları ələ keçirmək siyasi və qlobal baxımdan Səddamın son məğlubiyyəti üçün həlledici rol oynaya bilərdi.

Məsələnin daha da aydınlaşması üçün o dövrün siyasi vəziyyətinə bir də toxunmaq istəyirəm. Xarici xəbər agentliklərinin əsas funksiyası informasiya hücumları ilə İrana qarşı ictimai rəy yaratmaq və İranın Fars körfəzində qəti qələbə çaldığı təqdirdə ABŞ-ın hərbi müdaxiləsinə zəmin hazırlamaq idi. Onlar bu təbliğatla İranı müharibə, İraqı isə sülh tərəfdarı kimi qələmə verirdilər.

Əcnəbi muzdurlarının təkid etdiyi əsas məsələ bu idi ki, İranın hücum edəcəyi təqdirdə İraq tərəfi bu hücumları dəf edəcək. Onlar belə dezinformasiyalarla, siyasi və hərbi hücumlarla İranı fikrindən daşındırmağa çalışırdılar. İran isə ilahi vəzifəyə və İslam strategiyasına əsaslanaraq, İslam vətənini, İslamı və Quranı müdafiə etmək üçün heç zaman belə təbliğatlardan qorxmayıb və qorxmur. Odur ki, həmin strateji bölgədə geniş hərbi hücum başlandı.

Məcnun adalarında baş tutmuş hücum üç hazırlıq əməliyyatından və bir əsas əməliyyatdan, üç istiqamətdən əl-Üzeyr, əl-Qərnə səmtinə və sonra əl-Beyzəyə doğru hücumdan ibarət idi. Əməliyyatın birinci günündə İslam döyüşçüləri əl-Qərnə, əl-Üzeyr və əl-Beyzə istiqamətlərində strateji Bəsrə magistralını üç gün bağlaya bildilər və dəstək hücumlarından istifadə edərək elə birinci gecə Məcnun adalarını ələ keçirmək üçün əsas əməliyyat

başlandı, çox az itki verməklə və çoxlu əsir tutmaqla məqsədlərinə nail oldu.

İslam döyüşçülərinin İmam Xomeyninin peyğəmbərcəsinə rəhbərliyindən ilham alan, Allaha təvəkküllə və Kərbəla ziyarətinə eşqlə baş tutan qələbəsi balansı pozdu, İranın hücum edəcəyi təqdirdə məğlub olacağını və böyük iqtisadi-siyasi problemlə üzləşəcəyini söyləyən informasiya şəbəkələri bir-bir supergüclərin narahatlıqlarını işıqlandırmağa başladılar. Bu xəbərlərin ən önəmlisi Fars körfəzi ölkələrinə edilən xəbərdarlıqlar idi. Təbliğat aparılırdı ki, İran qələbə çalsa, Küveyt, Ərəbistan və Fars körfəzinin əsas hissəsi təhlükə altına düşəcək. Onlara bir növ hazırlıq tapşırığı verilirdi və bunun özü onların qorxusunun və İslam döyüşçülərinin qələbəsinin böyüklüyünü göstərir. Əgər o dövrün xəbərlərinə və siyasi mühitinə diqqətlə nəzər salsaq, görərik ki, ümumi xəbərlər İslam döyüşçülərindən qorxu və onların qələbəsi barədədir. Əlbəttə, adət üzrə, xarici media şəbəkələrində İraqın Məcnun adalarını yenidən ələ keçirdiyinə, yaxud ələ keçirmək üçün güclü qoşun göndərdiyinə dair ziddiyyətli xəbərlər də yayılırdı.

Burada önəmli məsələ cinayətkar supergüclərin etiraflarıdır. "Amerikanın səsi" radiosu xəbər verdi ki, İrandakı xarici diplomatlar bu əməliyyatın hərbi və taktiki baxımdan müstəsna bir əməliyyat olduğunu etiraf etmişlər. Bu, qardaşlarımızın

fədakarlığının nəticəsi olan hərbi-taktiki üstünlüyü göstərir.

"Amerikanın səsi" radiosu və "Vaşinqton Post" qəzeti 24 mart 1984-cü ildə ABŞ prezidenti cənab Reyqana verilən xəbərdarlığı dərc etdi. Orada deyilirdi: "Cənab Reyqan! Bu gün bütün ictimai rəy Kremlə və Sovetlərə meyillənib. Öz arxanıza baxın, İranı və Ayətullah Xomeynini görün. Onlar siyasi bölgüdə üçüncü güc kimi İkinci dünya müharibəsindən sonrakı coğrafi-siyasi balansı pozurlar. Bu, ABŞ xəbər agentliklərinin öz etirafları və əslində, Amerika xalqının öz dövlət başçılarına bir xəbərdarlığıdır ki, yenə Xeybər əməliyyatının əhəmiyyətini göstərir.

Bu əməliyyatda bariz məsələ adaların ələ keçirilməsi və İslam qüvvələrinin strateji Bəsrə magistralının 5 km-nə çatmasıdır. Bu isə İranın əməliyyat keçirməyə və yeni hərbi təcrübələr qazanmağa qadir olmadığına dair sərsəmlərə cavabdır. Biz bu təcrübələri keçmiş dörd ilin təcrübələri ilə birləşdirib gələcəkdə Səddamın tam və qaçılmaz məhvi üçün daha yaxşı planlar hazırlaya biləcəyik.

Başqa bir məsələ imkanlardan istifadə edib Hur gölündən keçmək idi. Bu da əməliyyatın bariz məqamlarındandır. Xəritədə gördüyünüz kimi, bu bataqlıq ərazilər hərbi-taktiki baxımdan keçilməz bölgələrdir və dünyanın klassik orduları tərəfindən

əməliyyata yararsız sayılır. Heç kimin ağlına gəlməzdi ki, müasir tarixdə döyüşçülər peyda olub öz fədakarlıqları, cəsarətləri və kreativ fikirləri ilə bu bataqlıqlardan keçə və strateji Bəsrə-Bağdad magistralını tuta bilərlər.

İraq hökuməti əməliyyatdan öncə bildirmişdi ki, İranın hücum edəcəyi təqdirdə kimyəvi silahlardan geniş istifadə edəcəyik. Bu da baş verdi. Onlar törətdikləri bütün cinayətlərindən böyük bir cinayətə əl atdılar, Cenevrə Konvensiyasını tapdayaraq Şərqin və Qərbin hədiyyə verdiyi kimyəvi silahlarla xüsusən Məcnun adalarındakı və onun ətrafındakı İslam döyüşçülərini dayandırmağa çalışdılar. Bu hücumlardan əsas xəsarət alan isə Hur bölgəsində yaşayan mülki əhali oldu. Onların gözlədiyinin əksinə olaraq, İslam ordusu nəinki məğlub olmadı, əksinə, döyüşçülər bu hadisələrdən ruhlandılar, kimyəvi silahlara məhəl qoymadan öz qanları, qəhrəmanlıqları və müqavimətləri ilə səngərlərini qorudular.

Bu əməliyyatda başqa bir məsələ yeni metod və texnikalardan istifadə idi. Bunların ən önəmlisi dünyanın heyrətinə səbəb olan Xeybər körpüsü oldu.

"Vaşinqton Post"un yazdığına əsasən, Qərbin hərbi ekspertləri etiraf edirlər ki, İran tərəfindən salınan 13 km-lik bu körpü müasir müharibələr tarixində misilsiz bir şey və klassik orduların gələcəkdə istifadə etməli olduğu təcrübədir.

Bu əməliyyatda ən bariz, önəmli və taleyüklü məsələ döyüşçülərin fədakarlığı idi. Düşmən adalara təxminən bir milyon iki yüz min top və raket mərmisi atdığına görə, demək olar ki, hər 20 sm-ə bir mərmi sərf olunmuşdu. İslam döyüşçüləri bu mərmi yağışını ələ salıb deyirdilər ki, adalar mərmilərin hesabına ağırlaşmışdır.

Bütün bunlara baxmayaraq, İslam döyüşçüləri İmam Xomeyninin müraciətini onun hörmətli nümayəndəsi cənab Haşimi Rəfsəncani tərəfindən aldılar. Əziz imam buyurmuşdu, döyüşçülərə deyin ki, bu əməliyyatda Hüseyn kimi vuruşsunlar. Bu ümmətin övladları Zəhra övladı olan İmam Hüseynin (ə) fəryadını bütün vücudları ilə hiss etdilər, eşitdilər, onun övladı olan ümmət imamının – bütqıran Xomeyninin çağırışına qoşuldular, son damla qanlarına, son nəfəslərinə, son patronlarına qədər dirəniş göstərdilər. Düşmən bütün qüvvələri ilə, dişinə qədər silahlanmış təxminən 360 batalyonla Məcnun adalarını geri almağa gəlmişdi, ancaq çoxlu itkilərdən sonra da İslam döyüşçülərini oradan çıxara bilmədi. Bu məsələ və bu mərhələ, əslində, qanın silah üzərində qələbə gücünü nümayiş etdirdi.

İraqa yerləşmiş xarici hərbi müşavirlərin özləri də etiraf etdilər. Bu, inşallah, İslam döyüşçülərinin amansız döyüş tarixinə qeyd olunası və İslamın küfrə qarşı ilk qüdrət nümayişi olan Çəzzabə əməliyyatından sonra növbəti ibrətli amil oldu. İslam

döyüşçüləri sübut etdilər ki, qan xəncərə qalib gəlir, Amerika, böyük cinayətkarlar və Sovet İttifaqı İraqa hədiyyə verdikləri silahlarla İslam döyüşçülərini ruhdan sala, hətta bir addım da öz mövqelərindən geri qova bilməyəcəklər.

Bəs bu əməliyyatın qlobal və siyasi nəticələri nə oldu? Məcnun adalarındakı qəti qələbədən sonra dünya bütün qüdrəti, müxtəlif imkanları və təbliğatı ilə birlikdə qorxuya düşdü və Fars körfəzi ölkələrini gücləndirməyə başladı. Tərtib etdiyim statistikaya görə, Xeybər əməliyyatı Fars körfəzi regionunda yeni silah bazarının yaranmasına səbəb oldu. Mən bir neçəsini möhtərəm tamaşaçıların diqqətinə çatdırıram ki, bu qələbənin böyüklüyü aydın olsun.

Xeybər əməliyyatından sonra ABŞ tərəfindən İraqa Braziliya istehsalı olan tanklar və SSB raketləri, habelə 45 böyük helikopter göndərildi, Ərəbistana 400 ədəd Stinger daşınan zenit-raket kompleksi verildi. Bu, İranın əzəmətini və Amerikanın ondan qorxduğunu göstərir. Onların və təyyarələrin Ərəbistana satışına əsas səbəb İslam Respublikasının təyyarə və pilotlarının şəhadət əməliyyatlarından qorxuydu.

Habelə Əbu Dabidə raket bazalarının yaradılması, Omanda Hava Hücumundan Müdafiə sistemlərinin quraşdırılması, İngiltərə, Braziliya, Fransa və İsveç tərəfindən Fars körfəzi ölkələrinə çoxlu silahın satılması, Fars körfəzində və Ərəbistanda Amerika

avaksları vasitəsilə daha geniş hava mühafizəsinin təşkil edilməsi də bu sahədə görülmüş işlərdəndir.

İran bu qələbələrlə qlobal və regional miqyasda siyasi üstünlük qazandı. Xarici heyətlər beynəlxalq münasibətlər qurmaq, iqtisadi-siyasi müqavilələr bağlamaq üçün İrana doğru axışdılar. Statistikaya görə, 1984-cü ilin 28 dekabrına qədər regionda sülhün bərqərar edilməsindən və İranla İraq arasında barışığa nail olmaqdan ötrü 50 ölkə tərəfindən 474 təşəbbüs göstərilmişdir. Mən kütləvi informasiya vasitələrində adları keçən bu ittifaq, komissiya və iclasları sırayla tez sayacağam ki, məsələ aydın olsun:

Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının parlamentlər iclası (01.06.84), yeddi ərəb ölkəsi başçılarının Londonda keçirilən iqtisadi iclası (07.06.84), Körfəz Əməkdaşlıq Şurası ölkələrinin Xarici işlər nazirlərinin toplantısı (15.06.84), Körfəz Əməkdaşlıq Şurası ölkələrinin Müdafiə nazirlərinin iclası (23.06.84), beynəlxalq sülh və təhlükəsizlik baxımından müharibənin təsirlərinin araşdırılmasına dair Bağdadda keçirilən konfrans (08.07.84), Ərəb Ölkələrinin Parlamentlər Birliyinin toplantısı (18.07.84), İslam Konfransı Təşkilatının Sülh komissiyası (18.07.84), Ərəb Liqası nazirlərinin yeddinəfərlik komissiyasının iclası (26.08.84), Körfəz Əməkdaşlıq Şurası ölkələrinin Xarici və Müdafiə nazirlərinin məxfi iclası (18.09.84), Körfəz

Əməkdaşlıq Şurası ölkələrinin Xarici işlər nazirlərinin birinci müavinlərinin iclası (24.09.84) və Ərəb Liqasının iclası (24.09.84).

Bunları sadalamaqla demək istəyirəm ki, bu qələbənin böyüklüyü dünyanı sülh istiqamətində təlatümə salmışdır. Lakin bunların İranla İraq arasında sülhün təmin olunmasına çalışmalarının əsas məqsədi regionun siyasi coğrafiyasının, neft ehtiyatlarının, xüsusən də Bağdadın cənub bölgəsinin, ikinci ən böyük ticarət və sənaye şəhəri olan Bəsrənin əhəmiyyəti idi. Onlar düşünürdülər ki, İran Bəsrəni ələ keçirsə və İraqı məğlub etsə, ərəb ölkələri də zəifləyib dağılacaq. Buna dəlilləri, əsasən, İslam inqilabı xəttinin region xalqları arasında artan nüfuzuydu. Qorxmalarına səbəb olan ən ümdə amil budur və imperializmin regionda nüfuzdan düşməsinə bu səbəb olmuşdur.

Məsələnin siyasi, hərbi və iqtisadi cəhətlərindən danışıb bu qəhrəmanlığı etmiş tövhid ordusunun fədakarlarından danışmamaq düz olmaz. Bu əməliyyatda iştirak edən və adət üzrə, İslamın hücumçu diviziyalarından olan hərbi birləşmələrdən biri də İslamın və qeyrətli Azərbaycan xalqının fəxri olan Aşura diviziyasıdır. Dördillik müqavimət əməliyyatları boyunca Aşura diviziyasının qəhrəmanlıqları hər kəsə bəllidir. Lakin bu diviziyanın, habelə həzrət Rəsul (s) və Əli ibn Əbu Talib (ə) diviziyalarının – bu iki diviziyanın hər biri

öz komandirini Allah yolunda qurban vermişdir[13] - qəhrəmanlıqları qələbədə əsas rol oynadı.

Qeyd etdiyim kimi, bu əməliyyat İslamla küfr arasındakı qüdrət nümayişində dönüş nöqtəsi oldu. Əlbəttə, döyüşçülərin hər biri qəhrəmanlıq etdi, onların hamısının hərəkəti bu diviziyaların düşmənin ardıcıl hücumları qarşısında duruş gətirməsinə səbəb oldu.

Bu qardaşların fədakarlığı barəsində bunu demək kifayətdir ki, onlar bataqlıq bölgələrdə, Hüveyzə gölünün təhlükəli ərazilərində təxminən 40 km yol gedərək Məcnun adalarını ələ keçirdilər, imamın müraciətindən ilham alıb torpaq istehkamlar qurdular, onları son günə qədər, sözün əsl mənasında, öz qanlarıyla qorudular. Yaxşı olar ki, burada Aşura diviziyasının komandir müavinləri və rəşadətli İslam sərkərdələri olan Şəhid Mürtəza Yağçianı,[14] Şəhid Həmid Bakirini[15] və diviziya

---

[13] Əli ibn Əbu Talib (ə) diviziyasının komandiri Mehdi Zeynəddin 18 noyabr 1984-cü ildə, Məhəmməd Rəsulullah (s) diviziyasının komandiri Məhəmməd İbrahim Himmət də 12 mart 1984-cü ildə şəhadətə qovuşmuşdur.

[14] 1953-cü ildə Təbrizdə doğulmuş Mürtəza Yağçian Aşura diviziyası komandirinin birinci müavini olmuşdur. O, 1984-cü ilin 26 fevralında Xeybər əməliyyatı zamanı şəhadətə qovuşdu, pak cəsədi isə 1996-cı ildə vətənə qayıtdı.

[15] 1955-ci ildə Urmiyada doğulmuş Həmid Bakiri Aşura diviziyası komandirinin birinci müavini idi, Xeybər əməliyyatı

komandirlərindən olan, daimi gülərüzlüyü ilə seçilən hörmətli qardaş İbadini[16] yad edim.

Bu qardaşlar yalnız burada qəhrəmanlıq etməyiblər, müharibənin əvvəlindən digər döyüşçülərlə çiyin-çiyinə bir neçə əməliyyatda kafirlər əleyhinə vuruşmuşlar.

Mənim bu qardaşlarda gördüyüm bariz xüsusiyyətlər onların müqavimətləri, düşmən önündə barışmazlıqları idi. Onlar hərbi dərslərini də Qurandan, imamlardan, qanlı Kərbəla sərkərdəsi həzrət Hüseyndən (ə) öyrənmişdilər.

Şəhid Yağçianla bağlı bir xatirəm var. Bu qardaşımız Süsəngird əməliyyatında ayağından yaralananda həkimlər yarasının sağalmayacağını bildirmişdilər. Lakin bu rəşadətli İslam sərkərdəsi bir neçə gündən sonra xəstəxanadan Süsəngirdə qayıtdı, sarıqlı ayağıyla uzun müddət əməliyyatlarda iştirak etdi və nəhayət, Kərxə çayında yenidən yaralandı və qısa müddətə əməliyyatlardan uzaq qaldı. Lakin qardaşımızda olan polad iradə onu arxa cəbhələrdə qalmağa qoymadı və o, Ramazan əməliyyatında

---

zamanı, 1984-cü ilin 25 fevralında Məcnun adalarında şəhadətə qovuşdu və cəsədi itkin düşdü.

[16] 1960-cı ildə Təbrizdə doğulmuş Məhəmmədbaqir Məşədi İbadi 1984-cü ilin 26 fevralında, İmam Hüseyn (ə) batalyonunun komandiri ikən Xeybər əməliyyatında şəhadətə qovuşdu, pak cəsədi 1995-ci ildə vətənə qayıtdı.

yenə cəbhəyə gəlib Allah-Taala, Quran və İslam önündə vəzifəsini yerinə yetirdi.

Mən qardaş Həmid Bakiri ilə birlikdə az olmuşam, ancaq bu ilahi insanda bir İslam əsgərinə yaraşan qətiyyət, vüqar və mətanət görmüşəm. Mürtəza Yağçianla Həmid Bakiri bütün əməliyyatlarda çiyin-çiyinə vuruşmuşdular. Mən əməliyyat bölgələrini araşdırmağa gedəndə onları həmişə birlikdə görürdüm; ön xətdə Aşura diviziyasının batalyonlarını idarə edirdilər.

Onların bu qardaşlığı, qəlblərinin vəhdəti əməldə də həyata keçdi. Onlar həmişə bir-birinin yanında olmuşdular, axırda Məcnun adalarında bir-birinin yanında ikən Kərbəla sərkərdəsi kimi qəribcəsinə şəhid oldular. Cəsədləri hələ də tapılmayıb.

Qardaşımız İbadinin bütün əməliyyatlardakı fədakarlığı və müqaviməti isə vəsfəgəlməzdir. Bu barədə Vəlfəcr-hazırlıq əməliyyatından bir xatirəm var. Bu əziz o qədər döyüş yerində qalıb geri qayıtmamışdı ki, axırda geri qayıdanda mövqeyin arxasındakı bölgəni yaxşı tanımırdı.

Sonda hizbullahçı və şəhidpərvər ümmətə sözüm budur ki, İmam Xomeyninin dəyərli dərslərinə diqqət yetirək. Ümmət imamının buyurduğu sözbirliyinə əməl edək və bir-birimizin yanında olmağa çalışaq; həm döyüş meydanında, həm də siyasətdə və arxa cəbhədə. Çünki qələbə yalnız birliyi olan, qəlbləri bir-birinə yaxın olan xalqa nəsib

olur. İmam Xomeyninin inqilabın nailiyyətlərini qorumaq üçün cəbhələrdə iştirakla bağlı çağırışına qoşulaq. Bu inqilaba təqdim etdiyimiz və etdiyiniz əzizlərə görə məyus olmayaq. Çünki biz nə qədər müsibət görsək də, Əbu Abdullah Hüseynin (ə) müsibətlərinə çatmaz.

İslam döyüşçülərinə, İmam Hüseynin (ə) qırmızı şəhadət yolunun fədailərinə sözüm budur ki, daha güclü birliklə, daha geniş şəkildə, Allah-Taalanın ipinə sarılmaqla cəbhələrə tələsək, əl-ələ verib Xeybər əməliyyatından və digər əməliyyatlardan daha böyük olacaq taleyüklü əməliyyatlarda rol oynayaq və nəhayət, ağa İmam Mehdinin (ə) özü tərəfindən qlobal İslam və tövhid dövlətini quraq. Vəssəlamu əleykum və rəhmətullahi və bərəkatuh!

# Əməliyyatın ləğvi

**Qulaməli Rəşid, Tağı Qəhrəmanniya**

Təcəllayi çox vüqarlı, mətanətli və ağır adam idi. Bəziləri ilk baxışdan onun təkəbbürlü olduğunu düşünürdülər, ancaq belə deyildi, həm işdə, həm də söhbətdə çox ciddi idi. Digər tərəfdən, çox da zarafatcıl deyildi.

Təcəllayi, həqiqətən də, bilikli və çevik idi. Çox gənc olmasına baxmayaraq, öyrəndiklərindən yaşlı və təcrübəli bir hərbçi kimi istifadə edirdi. Az yaşıyla peşəkarlığı, dərrakəsi və əməliyyat planlarına dair fikirləri insanı valeh edirdi.

Görkəminə görə, Təcəllayidən bu qədər istedad və peşəkarlıq gözlənmirdi, lakin danışmağa başlayanda fikirlərinin əsaslı olduğuna hamı inanırdı. Bir dəfə Dezfulda ordunun 92 saylı diviziyasının ikinci zirehli briqadasında Baş müharibə komandanı cənab Haşimi Rəfsəncaninin, korpusun Baş komandanı cənab Möhsün Rzayinin, qərargah və diviziya komandirlərinin iştirakı ilə iclas keçirildi. Qərara alındı ki, Abadanın ön səmtində, Ərvənd çayının qərbində bir əməliyyat hazırlansın. Bu planda çoxlu zəif cəhətlər vardı. Bütün komandirlər danışdılar və hərə bu əməliyyatın bir yönünü izah etdi. Növbə Təcəllayiyə çatdı. Danışığından iki-üç dəqiqə

ötməmiş bütün gözlər ona dikildi. Təcəllayi əməliyyatı o qədər gözəl şərh edib mənfi və müsbət cəhətlərini açıqladı ki, hamı onu alqışladı. Hətta mənim yanımda oturmuş ordu zabitləri də ona "afərin" dedilər. Allah ona bu istedadı vermişdi: əməliyyatın bütün nöqsanlarını və zəif cəhətlərini toplayıb bir yerdə izah edirdi.

Onun həmin iclasdakı dərin təhlilləri böyük bir hərbi qərarla nəticələndi. Təcəllayinin çıxışından sonra cənab Haşimi qərarını verib dedi: "Bu əməliyyat hələlik saxlanmalıdır". Əgər baş tutsaydı, nəinki qələbə çalmayacaqdıq, hətta düşmənin xeyrinə olacaqdı. Biz bu mühüm məsələdə Təcəllayiyə borcluyuq. Bu parlamadan sonra Təcəllayiyə çoxlu "müştəri" tapıldı: bütün komandirlər bir yolla onu öz birləşmələrinə aparmaq istəyirdilər.

Mən onu çox sevdim, öz-özlüyümdə gələcəyi üçün müdafiə və komandirlik sahələrində müəyyən vəzifələr təsəvvür etdim.

Əgər ilahi görüşə tələsməsəydi, heç şübhəsiz, bu vəzifələri ona təklif edərdim.[17]

Bir əməliyyat olacaq, şəxsi heyət Ərvənd çayından keçəcəkdi. Əli Səyyad Şirazinin planına uyğun olaraq, bizim sahilboyu atəşlərimizlə düşmənin əl-

---

[17] Bu hissəni nəql edən korpusun keçmiş Baş komandanı Möhsün Rzayidir.

qolu bağlanacaq, helikopterlər döyüşçülərimizi çayın o tərəfində endirəcək, onlar da əl-Bahar-Fav magistralına girəcəkdilər. Hamımız bu plan üzərində işləyirdik. Əli Təcəllayi, Məscidi, Sövdagər və İmami ordunun komandirlik kursundan gəldilər. Məhəmməd Cəfər Əsədinin başçılığı ilə Zəfər adlı qərargah yaradıldı və komandirlik təlimi görmüş pasdarlar bu qərargaha toplaşdılar. Öncəki təcrübələrə görə, Əli qərargahın Əməliyyat rəisi və həm də Əsədinin birinci müavini kimi təqdim olundu. İmami Əlinin birinci müavini oldu, Sövdagər də Kəşfiyyat-diversiya rəisi. Mən Xatəm qərargahının kəşfiyyatındaydım, Zəfər qərargahının kəşfiyyatı ilə əməkdaşlıq edirdim.

Korpusdakı qardaşların bir qismi bu əməliyyatın həyata keçirilməsinə razı deyildilər. Bəzi ordu komandirləri də buna qarşı çıxırdılar. Korpusdan olan etirazçılar deyirdilər ki, bizim helikopterlə hava-desant hücumu kimi təcrübəmiz olmayıb.

Düzdür, Xeybər əməliyyatında canlı qüvvə bu şəkildə Hur sularının o tayına keçiriləcəkdi, lakin bu, baş tutmadı və əksər döyüşçülər qayıqla keçdilər.

Biz bu əməliyyat üzərində işləyir, Ərvəndin qabarma-çəkilməsini araşdırır və göydən şəkil çəkmək üçün pilotsuz aparatlar göndərirdik.

Qərara alındı ki, səhər saat 11-də Baş müharibə komandanı cənab Haşimi Rəfsəncaninin iştirakı ilə əməliyyat barədə son iclas keçirilsin. Bir gün öncə

Xatəm qərargahının Kəşfiyyat rəisi Məhəmməd Baqiri məni çağırıb dedi: "Tağı, istəyirəm ki, bir nəfər mesajı qərargaha çatdırsın. Təcəllayiyə sözüm var". Dedim ki, özüm gedərəm. Axşam saat 9-da ağa Rəşid mənə bir kağız verdi. Yapışqanla yapışdırılmışdı ki, açılmasın. Mənə dedi: "Cavan oğlan, bu məktubu Zəfər qərargahına apar və Əli Təcəllayinin özünə ver". Kağızı alıb getdim.

Zəfərə çatanda gecə idi, hamı istirahət edirdi. Əli tək oturub çay içir, yazıları araşdırırdı. Salam verdim. Salamımı alıb dedi: "Nə üçün gəlmisən?" Məktubu ona verdim. Yapışqanını açıb oxudu. Soruşdum ki, nə yazılıb? Onunla sirdaş olsaq da, mənə dedi: "Sənə aid deyil. Qalx, get". Dedim ki, de görüm, nə olub? Dedi: "Qalx, get, oğlan!" Dedim ki, eybi yox, demə. Sabahkı iclasın xəritələrini otağa təhvil verdim. Getmək istəyəndə Əliyə dedim: "Bir tapşırığın varmı?" Dedi ki, gəl, çay iç, sonra gedərsən. Oturub çay içəndə yenə məktub haqda soruşdum. Dedi: "Bir şey deyil. Sən yalnız sabahkı iclasda öz vəzifəni yerinə yetir". Dedim ki, nə vəzifəsi? Dedi: "Sabah gəlib xəritələri yerbəyer edəndə biləcəksən". Daha israr etməyib qayıtdım.

Ordu və korpus komandirləri gəldilər, iclas başlandı.

Haşimi Rəfsəncani Səyyad Şiraziyə dedi: "Siz qalxın, planınızı açıqlayın, müzakirə edək". Səyyad

qalxıb antenini açdı və planını başa saldı. Ondan sonra da komandirlərin bir neçəsi danışdı.

Növbə Zəfər qərargahına çatdı. Möhsün Rzayi korpusun Baş komandanı kimi dedi: "Zəfər qərargahının komandiri ağa Əsədidir, birinci müavini də ağa Təcəllayi. İcazə verin, ağa Təcəllayi fikrini bildirsin".

Əli ayağa qalxdı, vüqar və heybətlə "Bismillah" deyib vəziyyəti açıqlamağa başladı. O, bir qədər danışandan sonra üzünü Haşimi Rəfsəncaniyə tutub dedi: "Hacı ağa və möhtərəm komandirlər! Düzdür, biz amfibiya əməliyyatı olan Xeybər əməliyyatını həyata keçirmişik. Lakin biz mövqeyi tutandan sonra helikopterlər 60 faizli təhlükəsizliklə adaya endilər. Mövqe 100 faiz alınmamışdı, amma helikopterlər adaya elə endilər ki, biz canlı qüvvəni havadan endirə bilmədik, normal endirdik". Əli misallar çəkdi, hətta Böyük Britaniya ilə Argentina arasında mübahisəli olan və Britaniyanın Argentinanın başına oyunlar açdığı Folklend adalarından danışdı. Sonra Sinay səhrasını misal çəkdi, İsrailin Misir ordusunun başına hansı müsibəti açdığını söylədi.

Əli dəlillərini söyləyəndən sonra Haşimi ona dedi:

– Siz bu planla razı deyilsiniz. Bəs təklifiniz nədir?

– Hacı ağa, ağa Şirazinin planı, yəni sahildən atəş açmaqla düşmənin əl-qolunu bağlayıb canlı qüvvəni A magistralında hava-desant qüvvələri şəklində endirmək üçün bir il yarım təlimə ehtiyac var.

Ordunun bu təlimləri keçmiş birləşmələri var, amma korpus qüvvələri heç bir təlim görməyiblər və bizim canlı qüvvə çatışmazlığımız olacaq. Şəxsi heyət hava-desant təlimi keçməlidir. Bizim təklifimiz budur ki, mövqeyi başqa şəkildə yaraq, – deyə Əli cavab verdi.

– Necə yaraq?

– Xeybər əməliyyatından təcrübələrimiz var, çayı keçmək üçün onlardan istifadə edə bilərik. Biz hərbi birləşmələri gücləndirməli, dalğıclara təlimlər keçməliyik. Məcnun adasında su sakit idi, ondan asanlıqla keçmək olurdu, burada isə suyun axını güclüdür. Biz dalğıcları gücləndirməliyik ki, mövqeyi ələ keçirə bilək.

Haşimi Rəfsəncani bu anda Əliyə baxıb dedi:

– Əhsən! Əhsən!

– Əmriniz yoxdur? – Əli soruşdu.

– Xeyr, sözüm yoxdur.

Səyyad Şirazi sakit oturmuşdu. İclasın aparıcısı Möhsün Rzayiyə dedi:

– Sizin əmriniz yoxdur?

– Yox, – deyə Rzayi cavab verdi.

Haşimi dedi:

– Bu əməliyyat baş tutmalıdır. Bunun üzərində işləyin ki, canlı qüvvələrimiz düşmənə hücum edə bilsin, nəinki artilleriya atəşi ilə düşmən zərərsizləşdirilsin. Mən ağa Təcəllayinin bəzi sözlərini qəbul edirəm. Bizim hava-desant hazırlığımız yoxdur və bu işi görmək istəsək, gərək

müvafiq təlimlər keçirilsin. Lakin bizim çox tezliklə bu əməliyyata ehtiyacımız var, oturub bir il təlimləri gözləsək, geri qalarıq. Üstəlik, düşmən özünü gücləndirər və biz irəlidə olduğumuz sahələrdə də geri düşərik.

Səyyad Şirazinin əməliyyat planı ilə razılaşmayan bəzi ordu komandirləri iclasdan sonra Əlini qucaqlayıb öpürdülər.

# Snayper

**Məhəmməd Təcəllayi, Böyük Asayiş, Əhməd Sövdagər**

Əli Bədr əməliyyatına[18] hazırlaşanda bizə dedi: "Bu əməliyyat öncəki əməliyyatlardan fərqlənir; burada əsirlik ehtimalı var. Mən əsir düşsəm, ola bilər, dindirmə zamanı dözə bilməyib etiraf edim və bu etirafla çox şey dəyişsin. Odur ki, əsl adım olan "Ənuş" sözünü iki-üç kağıza yazıb cibimə qoyuram. Əgər yaralansam, siz də məni bu adla axtarıb paltarımın əlamətlərini deyərsiniz. Əgər şəhid olsam, öz uşaqlarımız tanıyacaqlar".

Əli komando şalvarı geyinmişdi, cibləri şişmişdi. O, üç ağ kartona böyük hərflərlə "Ənuş" yazıb birini köynəyinin cibinə, birini şalvarının sağ, birini də sol cibinə qoymuşdu.

***

Bədr əməliyyatından qabaq arxa cəbhə uşaqlarından olan bir bəsici səngərə girib dedi:

– Kimin döyüş kartı və nişanı yoxdursa, desin, yazım.

Əli dedi:

---

[18] Bədr əməliyyatı 10.03.85 tarixində cənub cəbhəsində Bəsrə-əl-İmarə magistralını kəsmək məqsədilə baş tutmuşdur.

– Mənim yoxumdur, qardaş, mənə yaz.
– Adın nədir? – deyə bəsici soruşdu.
– Əli.
– Soyadın?
– Təcəllayi.
– Vəzifən.
– Snayper.

Bəsici yazdı, sonra da qalxıb getdi. Bizsə yerimizdə donub qalmışdıq. Əli Xatəm qərargahının Peşəkar hərbi təlimlər üzrə xidmət rəisi idi, bəsiciyə isə snayper olduğunu söyləmiş, mən danışmaq istəyəndə təbəssümlə barmağını dodaqlarının üstünə qoymuşdu.

***

Bədr əməliyyatından öncə bildim ki, Təcəllayi əməliyyatda adi snayper kimi iştirak etmək istəyir. Ona dedim:

– Sən bu qədər təlim görmüsən, nə üçün snayper kimi İmam Hüseyn (ə) batalyonuna gedirsən?
– Yəni özün bilmirsən? – deyə Əli soruşdu.
– Səbəbi nə olur-olsun, sən istedad və bacarıqlarınla şəxsi heyəti idarə edə bilərsən.
– İdarə etməyim budur ki, özüm addım atım və Quran ayəsinin real nümunəsi olum. Mən irəli gedəndə, hamı arxamca gələcək, ancaq dayanıb "gedin" desəm, nə olacağı bəlli deyil.

# Rəqs edə-edə gedəcəyəm

**Qulam Zahidi**

Batalyonumuz Bədr əməliyyatından qabaq Şətt-Əli bölgəsində təlim keçirdi, əməliyyat bölgəsi və zamanı barədə heç bir məlumatımız yox idi. Bu zaman Əli oraya gəldi. Bəzən deyirlər ki, Mehdi Bakiri Əlinin cəbhədə olduğundan xəbərsiz idi. Əslində isə, bu, doğru deyil. Əli Şətt-Əliyə gələndə ağa Mehdi bundan xəbərdar idi, onlar bir yerdə oturub-dururdular. Əli günorta yeməyini bizimlə yeyirdi, axşamlar ağa Mehdinin səngərinə gedirdi. Mehdi Bakiri Əlinin əməliyyatda, özü də adi snayper kimi iştirak edəcəyini bəlkə də bilmirdi, amma orada olduğundan xəbərdar idi.

Əməliyyat başlayanda və biz İmam Hüseyn (ə) batalyonunun döyüşçüləri ilə birgə yola düşəndə batalyon komandiri Əsğər Qəssab Əli ilə birlikdə bir qayıqla gəldi. Biz onların arxasındaydıq. Düşmən mövqeyinə yaxınlaşanda dalğıcların əməliyyata başlamasına qədər gözlədilər. Biz hücuma keçdik, döyüşlərdən sonra Dəclənin kənarındakı istehkama yerləşdik. Orada dayanmadan səngər düzəldirdik. Çox yorulmuşduq. Bütün batalyondan otuz-qırx nəfər qalmışdı, qalanı öncəki günlərin döyüşlərində şəhid olmuşdu.

Bir gecə orada qaldıq. Qərara alındı ki, ertəsi gün, yəni əməliyyatın dördüncü günü Kisəli bölgəsinə və avtobana hücum edək.

Kisəli bölgəsi əl-Qərnə şəhərinin solunda yerləşirdi, qarşı tərəfində bir avtoban vardı, körpünün üstündən keçib Dəcləni dövrə vururdu. Biz həmin avtobanı tutmalı, körpünü partlatmalı və məntəqəni genişləndirməli idik. Bununla iki düşmən korpusu arasında məsafə yaranacaqdı. Biz həmin axşam necə başlayacağımızı çox müzakirə etdik. Əli ilə Əsğər Qəssab bir neçə dəfə gedib ağa Mehdi ilə danışdılar.

Yadımdadır, Əli həmin axşam pələng dərisi şəklində şalvar geyinmiş, başına yun papaq qoymuş, boynuna qırmızı İraq şalı dolamışdı. O, çəkmə yerinə bir cüt ağ İran keti tapıb geyinmişdi, bağı da yox idi. Bir qara bağ tapıb bir tayına bağladı. Ona dedim ki, Əli, ağ ket qara bağla çox da uyğun gəlmir. Dedi: "Bilirəm. Axtar, gör ağ bağ tapa bilərsən?" Axtarıb bir ağ bağ tapdım. Beləliklə, bağların biri qara oldu, biri ağ. Ona dedim:

– Döyüş yerində çəkməni çıxarıb ket geyinmək olmaz!

– Gərək bacardıqca yüngül olaq, – dedi.

– Onda belə çıxır ki, gərək silah da aparmayaq, daraq və qumbara da götürməyək.

– Yox, bunlar vacibdir, amma qumqumalarınızı doldurmayın. Biz susuz dodaqla şəhid olmuş birinin görüşünə gedirik.

Ertəsi gün Əlinin göstərişi ilə qumqumaları kəmərlərimizdən açıb Kisəlidə hücum nöqtəsində qoyduq.

Yavaş-yavaş getməyə hazırlaşmalı idik. Bizə dedilər ki, namazınızı qılın, yola düşək. Ancaq heç kimdə taqət qalmamışdı. Bəzi uşaqlar deyirdilər ki, daha gedə bilmərik. Haqlı idilər də. Onlar üç gün ən ağır şəraitdə, toz-torpaq, barıt, mərmi və raket atəşləri altında vuruşmuş, müqavimət göstərmişdilər. Partlayışların həcmindən bütün yer şumlanmışdı. Hər yer güllə, qəlpə və tüstü ilə doluydu. Uşaqların üz-başı toz-torpaqlı heykələ oxşayırdı. Dostlarının çoxu ya yaralanmış, ya da şəhid olmuşdu. Əsla istirahət etməmişdilər. Hətta bir addım da ata bilmirdilər. Cəlil Ərcüməndi adlı bir nəfər deyirdi: "Əgər yeridiyim yerdə yuxuya getsəm, diqqətiniz məndə olsun". Yəni bu qədər yorulmuşduq.

Bu əsnada Cəlil Ərcüməndi qalxıb dedi: "Əsğər ağa, mənim başqalarıyla işim yoxdur. Mən hazıram. Yorğun olsam da, hazıram". Əsğər dedi: "Get, uşaqlara de ki, Əsğər özü də addım-addım sizinlə gələcək. Burda komandir yoxdur. Hamımız birlikdə gedəcəyik".

O, əlimdəki avtomatı alıb dedi: "Gedin, uşaqlara deyin ki, Əsğər də “Kalaşnikov” götürüb, sizinlə gəlir". Yola düşməzdən öncə bir rövzə oxundu, uşaqlar ruhlandılar. Hamımız qəribə ab-havadaydıq, fikirləşirdik ki, nə olursa-olsun, şəhid dostlarımızın qisasını almalıyıq. Hamı qalxıb namaza başladı.

Hərəkət başlandı. Dəclənin kənarından qalxdıq. Hara getdiyimizi düz-əməlli bilmirdik; yalnız onu bilirdik ki, avtobana doğru gedirik.

Çayı keçdik. Bir qədər aralanandan sonra Əli dedi ki, gözləyin. Bəlkə də atəşə görə belə dedi, ya da gedişimizi razılaşdırmaq istəyirmiş. Bizi 20 dəqiqə xurmalığın yanında oturtdu. Düşmən hələ kor atəşlər açır, İraq təyyarələri fişəng atırdı. Əli bu vəziyyətdə danışmağa başladı. Beynimə həkk olunmuş sözləri bunlardır:

"Allah insanı yaratmaq istəyəndə mələklər dedilər ki, İlahi, məgər bu adamların qan tökəcəyini, bir-birini öldürəcəyini bilmirsən?!" Allah onlara buyurdu ki, Mən bildiyimi siz bilmirsiniz. Allah Adəmə gözəl adları öyrədəndə şeytan da qanadlarını açmaq istəyirdi, ancaq Allah buyurdu: "Yox, belə olmaz. Gözəl adları bunlara öyrədəcəyəm. Şeytan Mənim bəndələrimi ələ keçirə, öldürə və apara bilməməlidir".

Bu gecə sizin Allahın hörmətini qoruyacağınız gecədir. Bəndə yanlış bir iş görəndə, şeytana sarı gedəndə şeytan Allahı məzəmmət edir, bir növ ələ salıb deyir: "Gör nə yaratmısan! Halbuki bu qədər ibadətdən sonra məni qovdun". Allah da buyurur ki, çıx get. Şəhidliyə can atan bəndələr vardır. Onlar şəhadət qarşısında rəqs edən kimidirlər, açıq qucaqla şəhadətə doğru gedirlər. Bu gecə rəqs gecəsidir. Bu gecə mələklər sizin rəqsinizə tamaşa edəcəklər. Rəqsinizlə Allahın başını ucaldın. Bu gecə şəhadət rəqsi gecəsidir. Siz indi Allah və şeytan önündəsiniz. Gedin, Səddama deyin: "Bu gecə ya sənə verən Allah, ya bizə verən Allah!"

Əlinin həmin gecə söylədiyi aşiqanə sözləri bəyan etmək mümkün deyil. Axırda da dedi: "Kim getmək istəyirsə, elə indicə getsin!" Birinci özü yola düşdü, arxasınca Əsğər, sonra da digər uşaqlar.

Qərara alınmışdı ki, mini-katyuşaların atəş dəstəyi ilə avtobana qədər gedək. Bunları Əli razılaşdırmışdı. O, düşmən pulemyotçularının koordinatlarını verirdi. Fişəng ətrafı işıqlaşdıranda tez düşmənin DŞK pulemyotunun yerini öyrənib xəbər verirdi. Bir neçə saniyədən sonra isə həmin yerin vurulub məhv edildiyini görürdük.

Düşmənin atəşi get-gedə çoxalırdı. Onlar bizim irəlilədiklərimizi bilirdilər. Avtobanın aşağısında bir kanal vardı, iraqlılar orada çox güclü müqavimət göstərirdilər. Biz kanalın yanında düşmənlə döyüşə

girdik. Bu döyüşdə uşaqların beş-altısı şəhid oldu, yaralandı, amma 35 nəfərlik birləşməmiz dağılmadı. Qarşılığında isə düşməndən qat-qat artıq can aldıq. Yadımdadır, yola çıxanda uşaqların biri dönüb kanala baxdı, düşmən cəsədlərini görüb təəccüblə dedi: "Bunları kim öldürüb?" Hər halda, özümüzü avtobana yetirdik.

Avtobana çatandan bir neçə dəqiqə sonra xırda nöqtə kimi işıqlar gördüm. Yadıma Şəhid Hüseyn Səfəri düşdü. Hərəkətdən öncə uşaqlara demişdi: "Nəzir edirəm ki, bu gecə avtobana çata bilsək, hərənizə bir ədəd siqaret verəcəyəm". Qaranlıqda siqaretlərin közünün işığı aydın görünürdü. Əli soruşdu ki, bu işıqlar nədir? Mən də nəzir əhvalatını danışdım.

- İndi belə nəzirlərin yeridir?! - Əli dedi, sonra gülüb əlavə etdi: - Eybi yoxdur.

Əli avtobana çatdığımızı ratsiya ilə diviziya komandiri Mehdi Bakiriyə xəbər verdi. Ağa Mehdi soruşdu ki, hardasınız? Əli dedi: "İndi avtobanın üzərindəyik". Mehdi soruşdu ki, hansı avtobanın? Avtobana çatmaq, onu ələ keçirmək qeyri-mümkün görünürdü. Heç kim düşünməzdi ki, uşaqlar bu tezliyə avtobana çata bilərlər. Düşmən bütün gücünü oraya cəmləmişdi, otuz-qırx nəfərlik bir dəstə isə avtomat və qumbaraatanla gedib avtobana çatdığını söyləyirdi! İnanılası deyildi. Əli Mehdiyə dedi:

- Mən indi ayağımı avtobana sürtürəm. Asfaltın üstündəyəm.

- Əşi, nə avtoban?! Yenə yaxşı bax. Bəlkə oranı qırlayıblar, elə bilirsiniz ki, avtobandır. Səhər də görəcəksiniz ki, avtoban qalıb o tərəfdə. Əli, fənəri yandır, əlini asfaltın üzərinə çək, sonra de, görüm avtobandasan, yoxsa yox? – deyə Mehdi Bakiri yenə inanmadı.

- Mən indi əlimi avtobana sürtürəm. Bunların avtobanı Kərəc avtobanı qədər olmayacaq ki! Kiçik, ensiz bir yoldur. Çoxlu yaşıllıq da var.

Əlinin dəlillərindən sonra ağa Mehdi bizim avtobana çatdığımıza inandı.

Çox yorğun olmağımıza baxmayaraq, yolumuza davam etdik. İraqlılar arxadan fişəng atırdılar, biz də dayanıb işığın sönməsini gözləyirdik. O qədər yorulmuşduq ki, həmin qısa müddətdə yuxuya gedirdik. Arxamızda bizi oyandıran adam olmasaydı, əməlli-başlı yatardıq.

Düşmən tankları irəliləyirdi. Minik avtomobilləri də gedib-gəlirdi. Bizə fikir vermir, özlərindən bilirdilər. Uşaqlar tankların birinə qumbaraatandan atəş açdı, ancaq o qədər yaxın idik ki, mərmi partlamadı. Tankın ekipajı heyrət içində yerə enib qaçmağa başladı.

Havanın işıqlaşmasına az qalırdı. Uşaqlar vuruşduqları yerdə ayaq üstə namazlarını qıldılar. Orada bir qüllə vardı. Əli bizə dedi ki, gedin, onu partladın. Məhəmməd Təcəllayi ilə gedib gördük ki, iri qüllələrdəndir. Dörd ayağı güclü fundamentlə və köməkçi dəmirlərlə yerə bərkidilmişdi. O qədər möhkəm idi ki, üzərinə böyük aparatlar yerləşdirmişdilər. Məhəmmədə dedim ki, nə edək? Dedi ki, bunu heç nə yerindən tərpədə bilməz. Dedim: "Əgər bir neçə əl qumbarasını bağlayıb ayaqların birini partlatsaq, təsir edər?" Dedi: "Yox, əşi, əgər üç ayağını da partlatsaq, yenə yıxılmaz". Əlinin yanına qayıdıb dedik ki, ona bir şey etmək olmaz.

Hava işıqlaşanda sağ tərəfimizin boş olduğunu gördük. İraq helikopterləri o tərəfdən bizim arxamızca gəlirdilər. Mərmimiz olsaydı, onları asanlıqla nişan ala bilərdik. Əynimizdə balon gödəkcə olduğuna görə bir helikopter bizi beş-altı iraqlı zənn edib başımız üstə dayandı və uzaqlara atəş açmağa başladı.

Kanaldan və avtobandan keçəndən sonra beşbucaq bir istehkamla rastlaşdıq. Bu istehkam geri çəkilən düşmən qüvvələrinə böyük kömək edirdi, indi isə bizim əlimizə keçmişdi. Əli bir-birinin ardınca RPG-dən və Simonov karabinindən atəş açırdı. Məni bir neçə dəfə Əsğərin yanına mərmi gətirməyə göndərdi.

Mən düşmənin kəsik-kəsik istehkamlarından keçib Əsğərin yanına getməli olurdum. Təxminən hər 15 metrdən bir kəsik yerə çatanda iraqlılar məni görüb pulemyotla atəş açırdılar, mən də çətinliklə özümü xilas edirdim. Üçüncü, ya da dördüncü dəfə göndərəndə dedim: "Əli, bu dəfə məni vuracaqlar". Dedi: "Bu dəfə qaçanda bir anlığa qayıt, iraqlılar daraq dəyişdirəndə cəld qaç". Elə də etdim. Bir anlığa özümü göstərirdim, onlar atəş açmağa başlayanda geri qayıdırdım, bir az sonra isə Əsğərə doğru qaçırdım.

Onların vəziyyətləri də yaxşı deyildi, əlləri boşalırdı. Əlinin istədiyini və bizim öndə olduğumuzu söyləyərək bir-iki mərmini və bir neçə darağı bir torbaya qoyub qayıdırdım.

Yenə dəfə getmək istəyəndə Əliyə dedim: "Əli, şübhən olmasın ki, bu dəfə vuracaqlar". Əli dedi: "Bu dəfə gedəndə səni qoruyacağam". Elə də etdi. Əsğərin yanına çatanda gördüm ki, daha sursatları qalmayıb. Bu dəfə Əsğər mənim 75 patronlu silahımı aldı. Dedim: "Əsğər ağa, bəs mən nə edim?! Axı biz daha öndəyik". Dedi: "Get, bir silah tap; şəhid olmuş uşaqlardan, ya da düşmən ölülərindən bir şey götür". Dedim ki, silah var, amma patron yoxdur. Dedi: "Bir daraq tapsan, bəs edər. Sonra da burda qalma, Əlini tək qoyma". Əsğər doğru deyirdi; Əli, həqiqətən də, tək-tənha qalmışdı.

Növbəti dəfə gələndə gördüm ki, Əsğər istehkamın üstündə snayper formasında oturub. Təəccüblənib uşaqlara dedim ki, niyə belə oturub? Uşaqlar kədərli halda cavab verdilər: "Əsğər ağa şəhid oldu!" Dedim ki, bəs niyə cəsədini gətirmirsiniz? Dedilər: "Uşaqlar Əsğərin şəhid olduğunu bilsələr, ruhdan düşərlər". Dedim ki, heç olmasa, mən gedim, silahımı götürüm. Dedilər ki, biz darağını götürmüşük, boş idi. Onun necə oturduğu indi də xatirimdədir. Çox qüdrətli tərzdə oturmuş, ayaqlarını qatlamış, əlində silah vurulub şəhadətə qovuşmuşdu.

Əlinin yanına qayıtdım, amma Əsğərin şəhid olduğunu söyləyə bilmədim. Bizim arxamızda iraqlıların bir ağ atı vardı. Atın orada nə gəzdiyini bilmirəm, amma onu da vurub öldürdülər. Əli dedi: "Gör bunlar nə qədər vəhşidirlər! Axı bu dilsiz heyvanı niyə vurursuz?!"

Bu zaman yaralı bir bəsici qarşıdan sürünə-sürünə bizə yaxınlaşıb Əliyə dedi: "Mən yaralandım". Əli ona dedi: "Sürünə-sürünə birtəhər geri get. Vəziyyəti görürsən; bizi gözləmə. Yaxşısı budur, özün qayıdasan, yoxsa burda qalmalı olacaqsan". Bəsici yaralı olsa da, oturduğu halda və sürünə-sürünə hərəkət edə bilirdi. Bəzən çətinliklə ayağa da qalxırdı. Əli atəş açmağa başladı ki, bəsici istehkamın arxasına keçə bilsin. O, ayaq üstə dayanmış, əlini tətiyə qoymuşdu. İstehkamdan çıxmışdı, amma

qorxmadan düşmənə doğru atəş açırdı. Bəsici kənara çəkilib hədəfdən çıxa bildi. Düşmən güllələri amansızcasına vızıldaya-vızıldaya qulaqlarımızın dibindən keçirdi. Bir neçə dəfə Əliyə dedim: "İstehkamın arxasına keç, indi səni vuracaqlar!" O isə məhəl qoymurdu. Altı-yeddi dəfə də qumbaraatanla atəş açdı. Mən də bir dəfə qumbaraatandan atəş açdım, amma narahat olub dedi: "Mərmini hədər eləmə, heyifdir. Gərək elə vuraq ki, nizamları pozulsun”.

Əli ayaq üstə atəş açdığı yerdə düz ürəyindən bir güllə dəydi, onu bir quş kimi yerdən qoparıb göyə qaldırdı, sonra yerə çırpdı. Tez başının üstə getdim. Qolları tam açıq idi. Əlinin işarəsi ilə məndən su istədi, amma bir neçə saniyədən sonra köhnə arzusuna çatıb susuz halda şəhadətə qovuşdu.

# Əlhəmdülillah

**Nəsibə Əbdüləlizadə**

1985-ci ilin novruz bayramı idi. Baharın gəlişinə üç saat qalırdı. Uşaqların paltarlarını dəyişdirmişdim. Dostlarımın bir neçəsi qapının zəngini vurub içəri girdi. Halları çox da yaxşı deyildi, narahat görünürdülər. Soruşdum ki, əməliyyatdan nə xəbər var? Dedilər ki, uşaqların çoxu şəhid olub. Onlar ağa Mehdi Bakirinin də şəhid olduğunu söylədilər. Çox narahat oldum. Əlinin bu əməliyyatda Bakirinin yanında olduğunu bildiyimə görə soruşdum: "Əli də şəhid olub?" Dinməyib başlarını aşağı salanda isə cavabımı aldım.

Əli həmişə mənə deyirdi: "Mənim şəhid olduğumu eşidəndə necə reaksiya verməyin çox önəmlidir. Gərək Allaha sübut edəsən ki, Onu məndən çox sevirsən". Həmin gün bir neçə dəfə başımı divara söykəyib bir-birinin ardınca, "Əlhəmdülillah" dedim. Anam qorxdu ki, birdən halım pis olar. Mənə dedi ki, qızım, ağla, qışqır. Lakin mən ağlaya bilmirdim, yalnız "Əlhəmdulillah" deyirdim. Dostlarımdan soruşdum ki, cəsədi qalır, yoxsa yox? Başlarının işarəsi ilə bildirdilər ki, qalır. Dedim: "Xudaya, Sənə şükür! Deməli, onu bir də görə biləcəm".

Bahar fəsli girəndən sonra telefonun zəngi çalındı. Çox həyəcanlı idim. Qonaqlara dedim: "Gördünüz, səhv etmisiniz! Əli zəng vurub, bayramı təbrik etmək istəyir". Lakin dəstəyi götürəndə bildim ki, Xatəmül-ənbiya qərargahından ağa Astaneyidir. Dedim ki, ağa Astaneyi, biz hər şeyi bilirik. Dedi: "Onun “şami-qəriban”ı nə vaxtdır?” Bunu deyəndə dəstək əlimdən düşdü. Bacım dəstəyi götürüb dedi: "Siz niyə Əli ağanın xanımı ilə belə danışırsınız?!" Cavab verdi ki, onun Əli ağanın xanımı olduğunu bilsəydim, belə deməzdim. Yenə dəstəyi alıb soruşdum ki, ağa Astaneyi, Əlinin cəsədi gəlib, yoxsa yox? Dedi ki, yox, hacı xanım. Soruşdum: "Niyə? Yoxsa cəsədi parçalanıbmı?" Dedi: "Yox, qorxmayın, güllə Əlinin ürəyinə dəyib, amma uşaqlar onu geri gətirə bilməyiblər".

***

Müharibədən illər ötürdü. Bir gün Hənnanə məktəbdən gələndə hönkürtü ilə ağladığını gördüm. Nə baş verdiyini soruşanda dedi ki, darıxıram. Məktəbdə nəsə bir hadisə baş vermişdi. Dedim ki, danış, görüm nə olub. Dedi ki, mən atamla danışmaq istəyirəm. Əlinin şəklini göstərib dedim: "Get, danış". Dedi ki, şəklini istəmirəm, qəbrini istəyirəm. Dedim ki, gəl, mənə de, mənimlə danış. Dedi: "Yox, səndən yorulmuşam, sənə demək istəmirəm. İstəyirəm ki, gedib məzarı başında atamla danışım".

Övladın adamdan mümkün olmayan bir şey istəməsi çox ağırdır. Hənnanəyə dedim: "Təəssüf ki, bu, mümkün deyil. Keç otağa, istədiyin qədər ağla". Hənnanə otağa girib ucadan ağlamağa başladı. İstəyini yerinə yetirə bilmədiyim üçün mən də onunla birlikdə ağlayırdım. Uşaq o qədər ağladı ki, axırda onu yuxu tutdu.

Axşamüstü saat 17:30 dəqiqədə telefonun zəngi çaldı. Dəstəyi götürdüm. Hacı Behzad Pərvinqüds idi. O, həmişə deyirdi: "Hacı xanım, axtarış qrupunun uşaqları Əlinin cəsədini axtarmağa gedəcəklər". Mən də deyirdim: "Hacı ağa, sən Allah, əgər mümkündürsə, bunu etməyin. Mən Əlinin sümüklərini görməyə dözə bilmərəm. Onun cəsədinin cəbhədə olması mənə daha rahatdır. Hər bir şeyin dözüm həddi var. Mən hiss edirəm ki, Əlinin cəsədini görməyə dözə bilmərəm".

Fikirləşdim ki, yəqin, Hacı Behzad bundan ötrü zəng vurub. Salamlaşandan sonra dərhal dedim: "Hacı ağa, əgər mümkündürsə, Əlinin cənazəsini axtarmağa getdiyinizi söyləməyin. Əlinin anası vəfat edib, atası da xəstədir. Əgər mənim üçündürsə, mən belə rahatam və Əlinin o torpaqlarda qalmasını istəyirəm". Hacı Behzad dedi: "Yox, hacı xanım, əgər icazə versəniz, biz uşaqlarla birlikdə Əli ağaya bir məzar düzəltmək istəyirik". Bunu deyəndə məni ağlamaq tutdu. Ağlamaqdan danışa bilmirdim.

Hacı Behzad mənim narahat olduğumu düşünüb dedi: "Problem deyil, əgər istəmirsinizsə, bunu etmərik". Dedim: "Yox, hacı ağa, iki-üç saat qabaq bu qız məndən atasının məzarını istəyirdi. İndi mən ağlamayım, neyləyim?! Gör, Allah bu uşağın sözlərini necə eşidir ki, bu tezliyə zəng vurub Əliyə məzar düzəltməyinizi deyirsiniz! Siz bununla mənim qızımı xoşbəxt etmiş olarsınız". Hacı Behzad çox təsirləndi, bir qədər sonra dedi: "Maraqlıdır ki, seçdiyimiz yer naməlum şəhidlərin düz ayaq tərəfindədir, Əlinin məzarını ziyarət etmək istəyən hər kəs əvvəlcə naməlum şəhidlərin yanından keçmiş olacaq". Çox sevinib razılığımı bildirdim.

On bir gün ərzində Əlinin xatirəsinə çox gözəl bir lövhə hazırlandı. Ondan sonra hər dəfə darıxanda oraya gedirik. Bəzən qızıma məzarın boş olduğunu söyləyəndə hirslənir, narahat olub deyir: "Yenə bunu dedin?! Hardan bilirsən ki, atam məzarda deyil?!"

# Qıza məktub

**Allahın adı ilə**

*Əziz qızım Məryəmə vəsiyyətnamə*

Salam, qızım! Bilirəm ki, hələ balacasan və məni xatırlamırsan. Lakin böyüyəndə atanın necə və nə üçün şəhid olduğunu bilmək istəyəcəksən. Bil ki, sənin atan bir pasdar olub; gərək sən də atanın qanının pasdarı - keşikçisi olasan.

Qızım! Bilirəm ki, yetim böyümək, yetim yaşamaq çətindir, lakin bil ki, Hüseyn, Həsən və Zeynəb də yetim olubdur. Hətta əziz İslam Peyğəmbəri həzrət Məhəmməd (s) də yetim böyümüşdür. Qızım, nə vaxt darıxsan, narahat olsan, atasının şəhadətindən sonra Şamın xarabalıqlarında aclıq və susuzluq qorxusundan can verib atasının görüşünə gedən

Hüseyn qızını yadına sal. Onda qəlbin bir qədər sakitləşəcək.

Qızım, yetim olduğuna görə heç vaxt başıaşağı olma, əksinə, bununla fəxr elə, bunu yaxşı qoru və bil ki, atan bu yolu boşuna qəbul etməyib. Biz əziz İslam, indiki və gələcək nəsil önündə məsuliyyət hiss etdik və bu məsuliyyəti yaxşı şəkildə yerinə yetirmək qərarına gəldik. Axı, qızım, Qurana və İslama görə, insan yalnız özünə və ailəsinə deyil, həm də yaradanına və cəmiyyətinə məxsusdur. Biz qərara gəldik ki, bu vəzifəni yaxşı yerinə yetirək; qərara gəldik ki, Allahın dininin müdafiə edək, qoruyaq.

Qızım, biz öz yolumuzu və ABŞ-ın, SSRİ-nin, İngiltərənin, Fransanın və digərlərinin başçılıq etdiyi beynəlxalq imperializmi tanımışıq, qərara gəlmişik ki, damarlarımızda qan qalınca beynəlxalq imperializmin, inqilabın və İslamın inkişafı yolunda maneə olan hər bir şeyin məhvi naminə dayanmayaq. Lakin, qızım, biz hamımız bu dərsi öz ruhani atamız İmam Xomeynidən və İmam Hüseynin (ə) Kərbəla məktəbindən öyrənmişik.

Qızım, bil ki, bu inqilab qiyamətə qədər qalacaq. Bu məktəb məqsədlilik, fədakarlıq, ixlas, cəsarət və şəhadət məktəbidir. Müəllimi Hüseyn və Zeynəb olan bu məktəb insana Allahın hökmlərinin icrası və Quran məktəbinin yaşaması üçün necə candan keçməli, İslam ağacının boy atması üçün necə mübarizə aparmalı olduğunu öyrədir.

Bu məktəb inqilabın və şəhidlərin varisi olan sənə atanın qanının mesajını necə çatdırmalı olduğunu öyrədir.

Qızım, bil ki, İslam inqilabı islahatçıların, məzlumların, mübarizlərin və dirilərin inqilabıdır; zülmə və azğınlığa qarşı dirəniş inqilabıdır. Qızım, Kərbəla məktəbindən – eşq, məhəbbət, ədalətsevərlik, zülm və azğınlığa qarşı mübarizə məktəbindən qaynaqlanan bu inqilabın tarixini yaxşı öyrən. Kərbəla isə azadlıq, mənəviyyat, hər bir dövrdə zülmlə barışmazlıq, yanmaq, amma ah çəkməmək məktəbidir. Bu məktəbdən dərs al, onu həyatının örnəyinə çevir və bil ki, biz qanımızı sizin qanınız rənglənsin deyə qurban vermişik. Biz qaranlıqları qəbul etmişik ki, sizin yolunuz aydın olsun. Qızım, bu inqilabın və öz cəmiyyətinin nailiyyətlərini, bir şəhid qızı kimi vəzifə və öhdəliklərini diqqətdə saxla. Məbada dünyanın maddi gözəllikləri bu inqilabın, bu şəhadət məktəbinin qəhrəmanlığını yadından çıxara və qüdrət dolu ruhunuzu sizdən ala!

Qızım, nə vaxt darıxsan, Aşura ziyarətnaməsini oxu, tarixin bütün şəhidlərinin rəhbəri olan Hüseynin müsibətlərinə bax, düşün, şəhid qızları ilə görüş və həmsöhbət ol. Ümidvaram ki, gələcəkdə atana layiqli varis olasan.

Qızım, bil ki, cismim səndən uzaq olsa da, həyatının bütün dövrlərində – uşaqlığında,

yeniyetməliyində, nişanında, toyunda hazır olacağam, əməllərinə, həyat tərzinə baxacağam. Çünki şəhidlər həmişə diridirlər. Ümidvaram ki, həyatında şad, xoşbəxt, Allahın itaətkar bəndəsi və axirətdə üzüağ olasan!

"Ey Rəbbim! Məni də, nəslimdən olanları da namazqılan et. Ey Rəbbimiz! Duamı qəbul elə!"

Atan Əli Təcəllayi
26.05.83

# Şəhid Əli Təcəllayinin birinci vəsiyyətnaməsi

**Bismillahir-Rəhmanir-Rəhim.**

"Küfr başçıları ilə vuruşun. Onların, həqiqətdə, andları (əhdləri) yoxdur"; "Müşriklərin hamısı sizinlə vuruşduqları kimi, siz də onlarla vuruşun"; "Fitnə aradan qalxana və din (ibadət) ancaq Allaha məxsus olanadək onlarla vuruşun"; “Onlarla vuruşun ki, Allah sizin əlinizlə onlara əzab versin, onları rüsvay etsin, sizi onlara qalib edib möminlərin ürəklərini fərəhləndirsin”.

Ümmət imamı, İmam Mehdinin (ə) qanuni nümayəndəsi, Hüseyn (ə) övladı, məzlumların, çarəsizlərin ümidi, yetimlərin və şəhid övladlarının atası olan Böyük İnqilab Rəhbərinə salam olsun!

Salam sənə, ey Allah nişanı, dövrün höccəti! Sənə Məhəmməd və Ali-Məhəmmədin (s) salamı olsun! Sən bizim xalqımızı illərlə yatdığı qəflət yuxusundan oyatdın, bu hərəkətdə məqsədimizi göstərdin, ona nail olmağın yolunu, sükutu, məktub yaymağı, bəyanat verməyi, həqiqətləri söyləməyi və nəhayət, qiyam, inqilab və mübarizə yolunu göstərdin. Sən Kərbəlanı və onun yardımçılarını, habelə münafiqləri, əhdi pozanları və zalımları bizə tanıtdırdın, paklıq və şəhadət yolunu, şəhadətə eşqi və düşmənin puçluğunu göstərdin.

Ey imam! Ey ümmətin rəhbəri! Ey ruhani ata! Sən öz sözlərinlə bizim tağut nəfslərimizi pakladın! Bil ki, son damla qanıma qədər sənin əmrinə tabe olacağam. Allaha and olsun, səninlə bağladığım əhddən bir an da dönməyəcəyəm və bədənimdən axan son damla qan "Allahu-əkbər! Xomeyni rəhbər!" yazacaq. Çünki mən bu vəfadarlığı Kərbəla məktəbindən, İmam Hüseynin (ə) bayraqdarından öyrənmişəm, ağamız Şəhid Ayətullah Behiştidə görmüşəm. Ey ümmət imamı və məzlumların ümidi! Bil ki, mən sənin təqlidçin və itaətkarınam. Bu isə elə Allah rəsulu Məhəmmədə (s) itaətdir. Son damla qanım yerdə "Allahu-əkbər! Xomeyni rəhbər!" yazana qədər sənin əsgərin və sən mənim komandirim olacaqsan!

Əziz atam və anam!

Bilirəm ki, qardaşım Mehdinin şəhadət acısı hələ ürəyinizdən çıxmayıb. Mənim və qardaşımın şəhidliyinə görə qəmgin olmayın, ağlamaq istəyirsinizsə, şəhidlər rəhbərinin və Əhli-beytin müsibətinə ağlayın. Siz bizdən ötrü ağlamamalısınız, çünki biz zavallı və aciz ölülər deyilik. Aciz olana, ilahi hidayət işığını itirənə və düzgün yoldan yayınana ağlamaq lazımdır. Biz, ilahi vəzifə olaraq, canımızı, qanımızı qurban verməklə beynəlxalq imperializmi yerə yıxdıq, zalım tiranlara qalib gəldik. Belə olduqda isə, bizdən ötrü ağlamaq rəvadırmı?! Əsla! Üzünüz gülsün, qürur hissi keçirin, sevinin ki, İslamın tərbiyəvi proqramları sayəsində vilayət və imamət xəttində olan övladlar yetişdirə, İbrahim kimi öz İsmayılını peyğəmbərlər inqilabının davamı olan İslam inqilabının Kərbəlasına qurban verə bilmisiniz!

Atam və anam! Mənə, Mehdiyə və digər şəhidlərə nəinki ağlamayın, hətta bizim məzarımızı da axtarmayın. Çünki biz hamımız bir yerdə, bir yataqda, bir-birimizin yanında yatmışıq.

Atam və anam! Bizim şəhidliyimiz sizi şəhid ailəsi kimi təkəbbürlülüyə düçar etməsin. Bu, şeytanın insan ruhuna qələbəsi deməkdir. Həm də bizi itirdiyinizə və bizə ağladığınıza görə savab da istəməyin, bizim yolumuza – İslam yoluna qədəm qoymağa çalışın, əziz imamımızı tək qoymayın,

bizim nə üçün şəhid olduğumuz, öz məşuqumuza qovuşmaqdan ötrü hansı yolu seçdiyimiz haqda düşünün.

Sonda mənim, qardaş və bacılarımın tərbiyəsi üçün çəkdiyiniz illərlə zəhmətlərdən ötrü sizə təşəkkür edirəm, sizdən istəyirəm ki, öz lütfünüzlə haqqınızı halal eləyə və Allah-Taalanın günahlarımdan keçməsi üçün dua edəsiniz!

Övladınız Əli

# Həyat yoldaşım N. S.!

Salam! Bilirəm ki, məndən sonra ağır məişət problemləri ilə üzləşəcəksən. Lakin yaxşı bilirsən ki, sən və mən Hüseyn (ə) və Zeynəb (ə) məktəbinin məzunlarıyıq. Mən həmişə sənin kimi bir həyat yoldaşım olduğuna görə fəxr etmişəm. Evdə olmadığım müddətdə həyatın çətinliklərinə dözmüsən, qızıma həm ata olmusan, həm də cəmiyyətin, inqilabın və əziz İslamın dərdini anlayan məsuliyyətli və ayıq ana. Birgə yaşadığımız qısa müddətdə ailədən əlavə, həm də dost ola bildiyimizə görə sevinirəm. Allah sənə və həyat yoldaşlarını məqsədinə həvəsləndirən bütün xanımlara arxa-dayaq olsun!

Sən heç vaxt məqsədim yolunda maneə olmadın, mənim üçün şəhadəti eşq və ehtirasdan üstün tutdun. Mən bu mənəvi əlaqəyə görə həmişə Allaha şükür etmişəm! Lakin bil ki, digərlərinin asudə yaşaması üçün sənlə mən əziyyət çəkməliyik; sən mənim "şami-qəriban"ıma oturmalısan ki, digərlərinin şənlik çırağı yansın. Sən və qızımız Məryəm çətinliklərə razı olmalısınız ki, digərlərinin yaşayışı təmin olunsun. Sən və övladlarımız inqilabın gələcəyi üçün yaxşı ehtiyatlar olmalısınız.

Yeri gəlmişkən, Məryəmin tərbiyəsi üçün bir şəhid xanımı kimi səy göstər, inqilab və İslam düşmənlərinə qarşı nifrətimi övladıma öyrət, onu həzrət Zeynəb kimi atasının şəhadət mesajını daşıyan və layiqli bir qadın kimi yetişdir, uşaqlığından ona şəriət hökmlərini və İslam elmlərini öyrətməyə çalış. Məbada, məbada Məryəmin tərbiyəsi ilə bağlı səhlənkarlığa yol verəsən! Çünki bu, övladımızın həyatını məhv etmək deməkdir.

Xülasə, bil ki, Allah elçilərinin işinə bərabər ağır bir vəzifə, yəni təlim-tərbiyə məsuliyyəti daşıyırsan, İslam inqilabının öhdəçi və müsəlman qadını olaraq, üzərinə çox ağır vəzifə düşür. Sonda Allah-Taaladan sənə dünya və axirət xoşbəxtliyi arzulayıram.

Həyat yoldaşın Əli Təcəllayi

# Şərafətli İran xalqı!

**Salam!**

Böyük İnqilab Rəhbəri İmam Xomeyniyə və şəhidpərvər ümmətə salam olsun! Sizə bir neçə sözüm var, ey İslam cəmiyyətinin fərdləri və bu qanlı bölgədə yaşayanlar! Siz bu döyüşçülərin, inqilab şəhidlərinin nə üçün və nədən ötrü ayağa qalxdıqlarını, kimin tərəfindən öldürüldüklərini bilirsiniz. Bilin ki, biz İslamın və İslam inqilabının şərəfi, sizin təhlükəsizliyiniz, azadlığınız və insan ləyaqətinin uca tutulması üçün ölümə getmişik. Biz Quran və peyğəmbərlər yolunun, sizin hörmət və namusunuzun qorunması üçün vuruşuruq. Biz İslam Respublikası Partiyasındakı əzizlərimizi Amerikanın daxildəki ünsürləri olan xalq münafiqləri tərəfindən partiya iqamətgahının dağıntıları altında itiririk, cümə imamlarımızı bu inqilabın yaşaması üçün Allah-Taalanın dərgahına təqdim edirik. Bizim evlərimiz başsız qalır, bu xalqın evi, yuvası dağılır, həyatını və əmlakını Amerika və iqtisadi terrorizm çapıb-talayır. Bizim gənclərimiz terror vasitəsilə, Amerika silahlarının atəşləri ilə şəhadətə qovuşurlar.

Nə üçün? – Sizin evlərinizin abadlığı, İslamınızın təhlükəsizliyi, düşmənin torpağınıza və namusunuza göz dikməsinin qarşısını almaq və nəhayət, əziz

İslamın əsasnaməsini qorumaq, din və insan ləyaqəti ağacının suvarılması üçün!

Şəhidlər mübarizələri dövründə sizi xatırlayırlar, çalışırlar ki, yaşadıqları mühiti supergüclərin şərindən və fəsaddan təmizləsinlər. Onlar sizin ləyaqətli həyatınız və azadlığınız üçün çalışırlar. İndi isə həyatınızı insani və Quran həyatına uyğunlaşdırmaq, inqilabın nailiyyətlərini qorumaq, şəhidlərin ümmət imamının yolundan ibarət yoluyla getmək sizin vəzifənizdir. Bizi unutmayın. Bizim məqsədlərimizi və İslam inqilabı cəmiyyətinin dərdindən ibarət dərdimizi diqqətdə saxlayın, çalışın ki, şəhidlərin qanları hədər getməsin, İslam işığı həmişə yansın, sizin dəstəyinizlə ilahi ədalət hakim olsun.

Sizi Allaha and verirəm, ayıq olun, hidayət işığının sönməsinə, zalım və fasiqlərin İslam cəmiyyətimizi ələ keçirməsinə imkan verməyin. Özünüzü və bir neçə günlük həyatınızı düşünməyin. Ayıq olun, gələcəyi quran İslam və inqilab cəmiyyəti üçün çalışın. Digərlərinin yoluna işıq tutun, insanlara doğru yolu göstərin.

Bu vəsiyyətləri eşidənlər və ya oxuyanlar! Bilin ki, bu inqilab və hərəkat ilk və son olmayıb, olmayacaq. Bu inqilab Hüseyn (ə) inqilabından doğub, yenə də doğacaq. Lakin bu ilahi əmanət sülh və təslimçilik yoluyla əldə olunmayıb və olunmayacaq. Bu inqilabı şəhidlərin qanı qoruyur, onun mühafizəçisi Allahdır,

zülmkarların gecə-gündüzü qara olmayınca da yaşayacaq, davam edəcəkdir. Odur ki, ümmət imamının Quran və peyğəmbərlər sünnəsindən qaynaqlanan müraciətlərinə ürəkdən əməl etməyə çalışın. Həzrət Mehdinin (ə) zühuruna qədər ümmət imamına və fəqih vilayətinə kömək edin. Allah siz hizbullahçı xalqın köməyi və dayağı olsun!

Pasdar qardaşınız Əli Təcəllayi

# Pasdar qardaşlarım!

**Salam!**

Böyük İnqilab Rəhbərinə və ümmət imamı olan Cəmaran pirinin, qollarını öpməsi ilə fəxr etdiyi siz döyüşçülərə salam olsun! Əziz qardaşlar! Bu bir neçə ildə siz pasdar qardaşlardan, xüsusən də cəbhədə mənimlə çiyin-çiyinə vuruşan döyüşçülərdən insani kamilliyə doğru hərəkət istiqamətində çox bəhrələnmişəm. Lakin sizin bəzilərinizi incitmiş olmam da mümkündür. Ümidvaram ki, Allahın bu dəyərsiz bəndəsini öz böyüklüyünüzə bağışlayasınız. Eyni zamanda sizə mövlamız Əlidən (ə) bir neçə tövsiyə var. Bu tövsiyələr pasdarlıq işinizdə sizə köməkçi ola bilər.

Hər bir halda təqvalı olun, Allahı öz əməllərinizə nəzarətçi bilin. Dünyanı istəməyin, onun özü aşiqcəsinə sizin ardınıza düşəcək. Çünki o, çox davamsız və aldadıcıdır. Cəmiyyətin məzlum və yoxsullarına və bütün məzlumlara köməkçi olun. Yetimləri, şəhid övladlarını unutmayın, onların vəziyyətlərindən xəbərsiz qalmayın. Bu azadlıq inqilabının məqsədlərinin həyata keçməsi üçün canınızı belə əsirgəməyin. Vilayət prinsipinə uyğun olaraq, komandirlərə tabe olun.

Bu inqilabın ümmət imamının rəhbərliyi ilə tam gerçəkləşməsi üçün kəfəniniz, dəyərli pasdar

geyiminiz qana bələşənə qədər vuruşun. Hər zaman və hər yerdə əl, dil və əməllə yaxşı işlərə dəvət edin, pis işlərdən çəkindirin, ən kiçik pis hərəkəti də görməzdən gəlməyin. Çünki yaxşı işlərə dəvət olunmayan və pis işlərdən çəkindirilməyən cəmiyyət ən əclaf insanların əlinə keçər, şərəfi və həyatı məhv olar.

İnqilabın və korpusun məqsədləri uğrunda dayanmadan, gecə-gündüz çalışan yüksək vəzifəli qardaşlara da bir neçə söz söyləmək istəyirəm:

İş və qərarlarınızda ədalətli, imanlı olun. Əgər iman sərhədi pozulsa və insanın ayağı o tərəfə dəysə, daha özünə heç bir hədd və qanun tanımaz. Korpusun işlərində ədaləti məsləhətə qurban verməyin. Dostbazlıq, tərəfkeşlik və ağızları böyük tikələrlə doldurmaq həmişə Allah-Taalanın qəzəbinə səbəb olur. Allah Nisa surəsinin 58-ci ayəsində buyurur: "Allah sizə əmanətləri öz sahiblərinə qaytarmanızı və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etmənizi əmr edir". Məbada tabeliyinizdə olanlarla ürəyiniz istəyən kimi, istibdadla rəftar edəsiniz! Tabeliyinizdə olan qardaşlarla ədalətlə və insafla davranın və sizinlə bağlı (fikirlərində) onlara haqq verin.

Səbirli olun, onların ehtiyaclarını aradan qaldırmaqla qəlblərinizdə insanlara sevgi və mehribanlıq oyadın. Çünki bunlar din qardaşlarınız və döyüş yoldaşlarınızdır. Təhlükə və problem dolu

inqilab vadisində qardaşlarla elə rəftar etməyin ki, sizdən acıqları gəlsin.

Sonda mənəvi və azadlıq cihadlarında Allah-Taaladan sizə müvəffəqiyyət diləyirəm!

Pasdar qardaşınız Əli Təcəllayi

# Şəhid Əli Təcəllayinin ikinci vəsiyyətnaməsi

**Bismillahir-Rəhmanir-Rəhim.**

İmam Mehdinin (ə) hüzuruna və onun qanuni nümayəndəsi, ümmət imamı bütqıran Xomeyniyə, şəhid ailələrinə və şəhidpərvər İran xalqına salam olsun!

Tam vəsiyyətnaməmi öncədən yazmışam; evdədir. Bu vəsiyyətnaməni daha çox borclarıma görə və bu qısa fürsətdə son söz və əsas vəsiyyətnaməyə əlavə kimi yazıram.

Qardaşım Məhəmmədə on səkkiz min tümən, həyat yoldaşımın ailəsinə qırx iki min tümən və atama beş min tümən borcum var. Əgər şəhadət səadətinə nail olsam, İranxodro şirkətindən alacağınız peykan avtomobilini satıb borclarımı ödəyər, pulun qalanını da iki əziz qızımın cehiz xərcinə saxlamaq üçün onların bank hesablarına köçürərsiniz. Məndə Mərkəzi qərargahın Plan və əməliyyat bölməsinin təxminən üç min tümən pulu vardı. Onun min iki yüz tümənini benzinə xərcləmişəm, min iyirmi tümənini də vəsiyyətnamənin içinə qoyuram. Pulun qalanı təmir işlərinə sərf olunub. Qəbzi olmadığına görə bunu Tehrana bildirərsiniz.

Sonda ailəmə, xüsusən də həyat yoldaşıma sözüm var. Bilirəm ki, məndən sonra atasız övladlar böyütməkdə çox çətinliklər çəkəcək. Əvvəlcə ailəmə, əziz qızlarım Məryəmlə Hənnanəyə bir müjdəm var. Bu böyük müjdə odur ki, əgər Rəhimli Allah bu günahkar bəndəsinə şəhadət nemətini nəsib etsə, Özünün vəd etdiyi kimi, məndən sonra sizin əsas qəyyumunuz Allah-Taala olacaq. Bu nemət isə az ailəyə qismət olur və siz – həyat yoldaşım və övladlarım, mütləq bunun şükrünü edin. Bunun şükrü də çətinliklər qarşısında səbirlilik və Allah-Taalaya qüsursuz bəndəlikdir.

Həyat yoldaşım! Sən mənim və müharibənin problemlərinə dözməkdə, səbirlilikdə həmişə nümunəvi xanım olmusan. Arzu edirdim ki, qismət olsun, sənin fədakarlıqlarının əvəzini çıxa bilim. Allah-Taalanın dərgahında sizin xüsusi məqamınız var. Çünki həm şəhid və döyüşçülərin savabına şəriksiniz, həm də peyğəmbərlərin peşəsi ilə məşğulsunuz. Əgər bu dəyəri yaxşı dərk etsən, dünya və axirətin üçün bəs edər. Çünki Allah cənnətin açarını siz imanlı, təqvalı anaların, qadınların ayaqları altında qoymuşdur.

Həyatımızın bütün mərhələlərində sənin fədakarlığın mənə aydın oldu. Bunun özü həyatımızın ən önəmli sevgi səbəbi idi.

Ümidvaram ki, nümunəvi ana xüsusiyyətlərini daha da inkişaf etdirib böyük missiyanı

müvəffəqiyyətlə başa vuracaqsan. Bil ki, analıq peşəsi, yaxşı və imanlı övladlar yetişdirmək ən böyük ilahi ibadət sayılır və sən ilahi rəhmət olan analıq peşəsi qarşısında məsuliyyət daşıyırsan. Zirvəsi saleh və imanlı övladlar yetişdirməkdən ibarət olan bu vəzifəni ideal şəkildə yerinə yetirməlisən. Çünki İslama və müsəlman topluma ən böyük xidmət imanlı və təqvalı övladlar yetişdirməkdir. Əziz imamımızın dediyi kimi, yaxşı bir övlad tərbiyə etmək bütün dünya qədər dəyərlidir. Çünki cəmiyyətlərin xoşbəxtliyi övladların tərbiyəsindən asılıdır.

Bu mühüm vəzifə ilə yanaşı, təbliğatçı vəzifəni də bir şəhid xanımı və inqilabçı müsəlman qadın kimi, bütün hərəkətlərinlə, əməllərinlə, çətinliklər qarşısında səbrinlə, küfr əleyhinə qəzəb və nifrətinlə yerinə yetir. Çünki şəhidlərin qanı və məzlumluq mesajı siz cəsur qadınlar vasitəsilə dünyaya yayılır, Allah-Taalanın köməyi, İmam Mehdinin (ə) vasitəsi və İmam Xomeyninin rəhbərliyi ilə qlobal İslam dövlətinin qurulmasına zəmin yaranır. Əməldə Fatimeyi-Zəhranın (ə) və qızı Zeynəbin ardıcılı, yaxşı ana və mesajı bəşəriyyət tarixini silkələdən güclü təbliğatçı olmağın yolunu cəmiyyətə göstər.

Yoldaşım və övladlarım Məryəmlə Hənnanə! Cəbhəyə gedib İslamı və Quranı müdafiə etmək Allah adamlarına vəzifə və böyük bir imtahandır.

Çünki cəbhə Allah adamlarının küfr, şirk və nəfslə sınaq yeridir. Bu sınaqdan ötrü də bütün maddi və qeyri-ilahi asılılıqlardan uzaqlaşmaq, aşiqcəsinə Allaha doğru getmək lazımdır. Əlbəttə, bu o demək deyil ki, mən ailəmi, ata-anamı və övladlarımı sevmirəm. Lakin sizi çox sevməklə yanaşı, həmişə çalışmışam ki, sizə bağlı olmayım, Allah dininin dirçəldilməsi yolunda öz sevgilərimə asanlıqla göz yuma bilim. Bilin ki, inqilabın əvvəlindən Allah görüşünə nail olmaq və qanımın İslam yolunda tökülməsi mənim üçün əsas məsələ olub və indi də belədir. Cəbhə də məqsədə çatmağın ən asan, ən yaxın yoludur. Bilməlisiniz ki, mənim üçün vuruşmaq, qələbə çalmaq və ya zahirən məğlub olmaq heç vaxt əsas olmayıb və deyil. Məqsəd Allah-Taala qarşısında bəndəlik və ona mütləq şəkildə təslim olmaqdır.

Əməliyyatda sadə bir döyüşçü kimi iştirak edəcəyimi biləndə hamı mənə nəsihət verir, həyatın problemlərini və övladlarımı xatırladır, təcrübə və vəzifəmi böyüdüb bildirir ki, korpusa, inqilaba və müharibəyə daha çox lazımam. Lakin hamınız bilin ki, mənim sözüm başqa bir şeydir, məqsədim uca məqsəddir. Eşq və Bəsic məktəbində iştirak etmək səadəti dəyərli və faydalıdır. Çünki dünyəvi vəzifədən uzaq olan adi bir döyüşçünün əməliyyatda iştirakından əldə olunan dəyərlər bəşərin düşüncə və ağlının fövqündə durur. Həyat yoldaşım və

övladlarım, əgər İslamı müdafiədə iştirak etməyin nəticəsini bilsəniz, inanın ki, nə siz, nə də hər hansı müsəlman kişi evində oturmağa razı olar. Mən qısa şəkildə sizə bəzi nəticələri yazıram ki, bu yolun böyüklüyü və mənim cəbhələrə bağlılığımın səbəbi aydın olsun.

Məcmə əl-bəyan təfsirində deyilir ki, Allah yolunda vuruşanlar cəbhəyə getmək qərarına gələndə Allah cəhənnəmi onlara haram edir. O, cəbhəyə hazırlaşanda Allah mələklər qarşısında belə insanla fəxr edir. Allah yolunda vuruşanların döyüş yerindəki birgünlük ibadəti min insanın minillik ibadəti qədər savabdır; özü də hər günü dünyanın ömrünə bərabər olan min il! Allah yolunun döyüşçüləri düşmənin qarşısına çıxdıqda isə dünya elmi onun savabını hesablamağa qadir olmur.

Bilin ki, cəbhə Allah adamları üçün çox gözəldir. Çünki orada gördüyün hər şey Allah nurudur, eşitdiyin hər söz şəhadət və fədakarlıqdandır. Söhbət şəhadət söhbətidir, görülən də bütün vücudları ilə ilahi vəzifələrini yerinə yetirmək üçün bir-birindən irəli keçməyə çalışan iradəli kişilərin və məsum gənclərin çöhrəsi. Görün, belə insanlarla yoldaşlığı və qardaşlığı görməzdən gəlmək olarmı?!

Sonda Allah-Taaladan siz ailəmə, özümə, həyat yoldaşıma, atama və anama rəhmət diləyir və bu günahkar bəndə üçün halallıq istəyirəm. Bütün döyüşçülərdən, xüsusən də Aşura diviziyasındakı və

Xatəm qərargahındakı qardaşlardan istəyirəm ki, haqlarını halal etsinlər. Ürəyimə damıb ki, Mərhəmətli və Rəhimli Allah istəsə, bu dəfə şəhadət məqamına nail olacağam. Odur ki, daha məni gözləməyin, çünki mən öz məşuqumun görüşünə və layiq olsam, azad insanların lideri İmam Hüseynin (ə) və İran Kərbəlasının hüseynçi şəhidlərinin görüşünə gedirəm. Dualarınızda məni unutmayın. Allah-Taalanın dərgahından əvf diləyirəm və hər iki ailədən istəyirəm ki, ailəmdən, xüsusən də qızım Məryəm xanımla əziz Hənnanəmdən muğayat olsunlar, onların tərbiyəsinə lazımi diqqəti göstərsinlər.

Vəssəlamu ələykum və rəhmətullahi və bərəkatuh.

Əli Təcəllayi, 09.03.85

Bir daha qeyd etmək istəyirəm ki, bu mənim əsas vəsiyyətnaməm deyil. Bu qeydlər yerini bildikləri öncəki vəsiyyətnaməmlə birlikdə mənim vəsiyyətnaməmi təşkil edirlər.

Allah amanında!